

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

25 avqust
2026-cı il,
çərşənbə axşamı
№ 151 (7218)
Qiymət
60 qəpik




# Növbəti dövlət səfəri...

## İlham Əliyev: Bu gün ikitərəfli münasibətlər çox möhkəm - həm mənəvi, həm də maddi təməl üzərində qurulub

## Şavkat Mirziyoyev: Ölkələrimiz regional konsolidasiyanı və əməkdaşlığın gücləndirilməsini dəstəkləyir



Bax səh. 2-4

# Bakı-Daşkənd: Tarixi önəm daşıyan səfər

Bax səh. 5










## Azərbaycan ilə Özbəkistanın iqtisadi imkanları...

Yeni əməkdaşlıq formatlarının yaradılması üçün geniş üfüqlər açılır

Bax səh. 6

## Bir xəritə, iki ad, üç mesaj...

Bağdad Tehranla "məsafəni" ölçür

Bax səh. 6

## Şah İsmayıl Xətai: imtina etmək, yoxsa tarixin gizlin və gerçəklərinə baxmaq

Bax səh. 7

## İturupdan Königsbergə qədər çəkilən xəritə

Bax səh. 7

# Ukraynanın Prezidenti Zati-aliləri cənab Volodimir Zelenskiyə

Hörmətli cənab Prezident,

Əlamətdar ildönümü - Ukraynanın müstəqilliyinin 35 illiyi münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Zəngin ənənələrə malik Azərbaycan-Ukrayna dostluq əlaqələrinin hazırkı səviyyəsi məmnunluq doğurur. Siyasi dialoqumuz, yüksək səviyyəli qarşılıqlı səfərlər, iqtisadi və humanitar sahələrdə əməkdaşlıq strateji tərəfdaşlığımızın mühüm cəhətlərindəndir. Enerji sahəsində uzun illərdən bəri davam edən səmərəli əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim.

Bu ilin aprelində Azərbaycana həyata keçirdiyiniz işgüzar səfərin nəticələrini, Sizinlə görüşümüzü yüksək qiymətləndirirəm. Şübhəsiz ki, müntəzəm görüşlər və təmaslarımız, ölkələrimizin ərazi bütövlüyü və suverenliyi məsələlərində qarşılıqlı dəstəyimiz dövlətlərarası əlaqələrimizin möhkəmlənməsini şərtləndirən əsas amillərdəndir.

Ali səviyyədə fəal dialoqun mövcudluğu müxtəlif sahələrdə, xüsusilə də ticari-iqtisadi, humanitar, kənd təsərrüfatı, investisiya və digər sahələrdə əməkdaşlığımızın dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır. Biz dost Ukrayna xalqına bundan sonra da humanitar dəstək göstərməyə davam edəcəyik.

İnanıram ki, xalqlarımızın mənafeləri naminə Azərbaycan-Ukrayna dostluq əlaqələrinin gücləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Ukrayna xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

# Növbəti dövlət səfəri...

## İlham Əliyev: Bu gün ikitərəfli münasibətlər çox möhkəm - həm mənəvi, həm də maddi təməl üzərində qurulub

## Şavkat Mirziyoyev: Ölkələrimiz regional konsolidasiyanı və əməkdaşlığın gücləndirilməsini dəstəkləyir



Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasına dövlət səfərinə gəlib.

AZƏRTAC xəbər verir ki, “Daşkənd-Xumo” Beynəlxalq Hava Limanında dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva qarşılayıblar.



***

Avqustun 23-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşkənddə Müstəqillik abidəsini ziyarət ediblər.



***

Avqustun 23-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşkənddəki Heydər Əliyev Meydanında Ümummilli Liderin barelyefi önünə gül dəstələri qoyublar.



***

Avqustun 23-də Daşkənddəki “Kuksaroy” Dövlət İqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Prezident İlham Əliyevi Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qarşılayıb.





***

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olub.



***

Avqustun 23-də Daşkənddə prezidentlər Azərbaycanın Özbəkistanda həyata keçirdiyi layihələrin açılış və təməlqoyma mərasimində onlayn formatda iştirak ediblər.

Tədbir çərçivəsində “Davr Bank” (AR Beynəlxalq Bankı), Gips zavodu (“Matanat-A”), “Landau” adına STEAM (Science, Technology, Engineering, and Mathematics) iki məktəb (“Landau Education Group”) layihələrinin açılışı olub. Həmçinin SOCAR-ın beş yeni yanacaqdoldurma məntəqəsinin, “Sea Breeze Uzbekistan” yaşayış və istirahət kompleksinin (“Agalarov Development”), “Baku City” yaşayış kompleksinin (“TuranAZ”), Gümüş tərkibli filizin emalı üzrə zənginləşdirmə fabrikinin (“Sur Gold and Silver Project”) və Meyvə bağlarının (“Gold Fresh Fruits”) layihələrinin təməlqoyma mərasimi keçirilib.

***

Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan və Özbəkistan sənədlərinin imzalanma, həmçinin ölkələrimiz arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev “Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə”ni və “Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının üçüncü iclasının Qərarı”nı imzalayıblar.

“Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Özbəkistan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Gömrük Komitəsi arasında kinologiya sahəsində təcrübə mübadiləsi və əməkdaşlıq haqqında Memorandum”u, “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş”I, “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş”i,



“Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması üzrə Proqram”ı və “Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında investisiyalar və ticarət sahələrində layihələrin həyata keçirilməsi üzrə Praktiki Fəaliyyət Planı”nı (Yol Xəritəsi)”, “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında Saziş”i, “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2027-2028-ci illər üçün Əməkdaşlıq Proqramı”nı, “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi arasında 2027-2028-ci illər üçün Əməkdaşlıq Proqramı”nı, həmçinin “Xankəndi şəhəri (Azərbaycan Respublikası) ilə Ürgənc şəhəri (Özbəkistan Respublikası) arasında qardaşlaşma münasibətlərinin qurulması haqqında Protokol”u, “Naxçıvan şəhəri (Azərbaycan Respublikası) ilə Ürgənc şəhəri (Özbəkistan Respublikası) arasında qardaşlaşma münasibətlərinin qurulması haqqında Protokol”u və “Laçın şəhəri (Azərbaycan Respublikası) ilə Buxara şəhəri (Özbəkistan Respublikası) arasında qardaşlaşma münasibətlərinin qurulması haqqında Protokol”u mübadilə edilib.

***

Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan və Özbəkistan Ali Dövlətlərarası Şuranın 3-cü iclası keçirilib.

Əvvəlcə Özbəkistan ilə Azərbaycan arasında dostluq, ticarət və investisiya əməkdaşlığı haqqında qısa film nümayiş olundu.

Sonra Özbəkistan Prezidenti Şavkat Mirziyoyev çıxış edərək dedi:

- Hörmətli İlham Heydər oğlu, əziz qardaşım. İclasın hörmətli iştirakçıları.

Sizi və qardaş Azərbaycan nümayəndə heyətini Daşkənddə bir daha səmimi-qəlbdən salamlayıram. Özbəkistana xoş gəlmisiniz.

Sizin səfəriniz bizim üçün ortaq tarix, mədəni yaxınlıq və qarşılıqlı hörmətlə bir-birinə bağlı olan, ruhən yaxın dövlətlərin görüşüdür. Bu gün Ali Dövlətlərarası Şuranın artıq üçüncü iclasını açırıq. Bu mexanizmin qüsursuz fəaliyyəti ölkələrimizin əldə etdiyi müttəfiqlik münasibətlərinin ən yüksək səviyyəsinin ən yaxşı nümayişidir.

Gündəlikdəki məsələlərə keçməzdən əvvəl, hörmətli İlham Heydər oğlu, Sizi Azərbaycanda həyata keçirdiyiniz uzaqgörən dərin islahatlar kursunun uğurla reallaşdırılması münasibətilə təbrik etmək istəyirəm. Biz qardaşlar və müttəfiqlər olaraq Azərbaycan iqtisadiyyatının necə dinamik və dayanıqlı inkişaf etdiyinə, yeni sahələrin və müasir infrastrukturun yaradılmasına səmimi-qəlbdən sevinirik. Bütün bunlar Azərbaycan xalqının rifahının sabit şəkildə yüksəlməsinə gətirib çıxarır. Sizin qətiyyətlə həyata keçirdiyiniz suveren siyasət ölkənin beynəlxalq nüfuzunun möhkəmlənməsinə, Cənubi Qafqazda sülh və quruculuq gündəliyinin irəlilədilməsinə xidmət edir.

Ötən ilin avqustunda Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin tarixi görüşünü və Birgə Bəyannamənin imzalanmasını Sizin şəxsi diplomatiyanızın parlaq qələbəsi kimi qiymətləndiririk. Sizi bir daha təbrik edir, Sizə yeni böyük uğurlar arzulayıram.

Hörmətli iclas iştirakçıları.

Biz ikitərəfli münasibətlərimizi tamamilə tarixi bir zirvəyə çatdırmışıq. Bunun təsdiqi kimi, hazırkı sammitin yekunları üzrə Əbədi dostluq haqqında tarixi Müqavilənin imzalanmasını göstərmək olar.

Ən başlıcası odur ki, strateji tərəfdaşlığımızın və müttəfiqliyimizin hər bir müddəası konkret, real işlərdə öz əksini tapır. Son beş ildə qarşılıqlı ticarətin həcmi 3 dəfə artıb, birgə layihələrin ümumi portfeli isə 5 milyard dolları ötüb. Bu da heç də son hədd deyil. Səfərə hazırlıq çərçivəsində Hökumətlərarası Komissiyanın iclası, Biznes Şurasının və Regionlar Forumunun toplantıları uğurla keçirilib və həmin tədbirlər çərçivəsində birgə layihə və proqramların icrası üzrə sıçrayış xarakterli təşəbbüslər hazırlanıb. İndi iki ölkənin hökumətlərinin, nazirliklərinin və



idarələrinin əsas vəzifəsi onların səmərəli icrasını təmin etməkdir. Biz Dövlətlərarası Şuranın iclasını hər dəfə keçirərkən İlham Heydər oğlu ilə birlikdə həmişə sizə deyirik ki, məsələləri ciddi nəzarətə götürəcəyik.

Hərtərəfli əməkdaşlığımızın prioritet istiqamətlərini qısaca diqqətinizə çatdırmaq istəyirəm:

Birincisi, regional və beynəlxalq platformalarda ortaq maraqlarımızı təşviq etmək məqsədilə xarici siyasət idarələrimiz arasında sıx koordinasiyanı davam etdirmək vacibdir. Həmçinin məhdud formatda parlamentlər, hökumətlər, nazirliklər, idarələr və bölgələrimiz arasında əlaqələrə güclü təkan vermək barədə razılığa gəldik.

İkincisi, indi dediyim kimi, ən yaxın hədəfimiz 1 milyard dollarlıq ticarət dövriyyəsi həddinə çatmaqdır. Bunun üçün əsas bu gün qəbul etdiyimiz və həmin mühüm mərhələyə çatmaq üçün konkret tədbirləri müəyyənləşdirən proqram olacaq.

Üçüncüsü, sənaye kooperasiyasının dərinləşdirilməsinə xüsusi diqqət yetiririk. Ölkələrimizin biznes icmaları geologiya, energetika, kimya, maliyyə, tikinti, kənd təsərrüfatı və digər sahələrdə bir sıra layihələri uğurla həyata keçirir. Bu iclas çərçivəsində yeni layihələrə start verəcəyik. Təşəbbüsləri dəstəkləmək üçün birgə investisiya şirkətindən vəsaitləri fəal şəkildə cəlb etməliyik. İlham Heydər oğlu ilə razılaşdıq ki, 500 milyon vəsaiti tez bir zamanda istifadə etməliyik, sonra isə bu fondu artıracağıq. Çünki onun vəsaitlərini düzgün istiqamətdə tətbiq etmək üzrə yaxşı birgə təcrübə əldə etmişik. Bugünkü iclasda ticarətin artırılması və əməkdaşlığın dərinləşdirilməsi üzrə müfəssəl planlarına dair Hökumətlərarası Komissiyanın həmsədrlərini dinləyəcəyik.

Dördüncüsü, nəqliyyat nazirlərimizin qarşısında ciddi vəzifələr durur. Orta Dəhlizin inkişafı çərçivəsində Xəzərdə birgə donanmanın istifadəyə verilməsini sürətləndirməliyik. Həmçinin Xəzər dənizində vahid operatoru olan ayrıca Özbəkistan-Azərbaycan dəhlizi yaratmaqda maraqlıyıq.

Beşincisi, müttəfiqliyimiz çoxəsrlik ortaq tarixə və iki qardaş xalqın mədəni dəyərlərinin yaxınlığına əsaslanır. Bu zəngin irsi diqqətlə qorumaq və artırmaq, müntəzəm olaraq qarşılıqlı Mədəniyyət günlərini lazımi miqyasda keçirmək bizim borcumuzdur. Həm də bu cür tədbirlər yalnız paytaxtlarda deyil, ölkələrimizin bölgələrində keçirilməlidir. Bu gün biz birlikdə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin yeni binasını açacağıq və Yeni Daşkənddə “Azərbaycan” parkının tikintisinə start verəcəyik.

Xalqlarımızı daha da yaxınlaşdırmaq üçün Nizami Gəncəvi ilə Əlişir Nəvai arasında birgə filmlərin, ədəbi körpünün yaradılmasını təklif edirik. Bu, xalqlarımız üçün gözəl yaxınlaşma imkanı və gənclər üçün nümunə olardı. Biz belə silsilə filmlər yaratmalıyıq.

Biz bu ilin payızında Azərbaycanda iki ölkənin aparıcı universitetlərinin rektorlarının ikinci forumunun keçirilməsini dəstəkləyirik. Gələn il ölkələrimiz mühüm idman tədbirinə - gənclər arasında futbol üzrə dünya çempionatına ev sahibliyi edəcək. Bununla əlaqədar yarışlardan əvvəl keçirilən idman, mədəni və gənclər tədbirlərimizi bir araya gətirəcək genişmiqyaslı “İki ölkə - bir çempionat” proqramı hazırlamalıyıq. Həmçinin gənclərin təkcə idman arenalarında deyil, həm də intellektual fənlərdə yarışa biləcəyi Özbəkistan-Azərbaycan İdman Oyunlarının yaradılmasını təklif edirik. İlham Heydər oğlu, bunu komandalarımıza həvalə etsək, çox gözəl olardı.

Hörmətli iclas iştirakçıları.

Ölkələrimiz regional konsolidasiyanı və əməkdaşlığın gücləndirilməsini dəstəkləyir. Daşkəndin və Bakının regionlararası inteqrasiyanın əsas hərəkətverici qüvvələri kimi öz rollarını təmin etmələri sevindirici haldır. Azərbaycanın Məşvərət Görüşləri formatına qoşulması iki region arasında iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi üçün yeni üfüqlər açıb. Ortaq səylərlə səmərəli şəkildə yeni geoiqtisadi reallıq - birgə inkişaf üçün güclü potensiala malik vahid, özünü təmin edən makroregion yaradırıq.

Bu gün çoxşaxəli Özbəkistan-Azərbaycan tərəfdaşlığının digər məsələlərini də müzakirə edəcəyik. Bilməlisiniz ki, biz, sözün əsl mənasında, hər bir sahə üzrə əlimizdə qələmlə araşdırma aparmışıq. İlham Heydər oğlu ilə bütün digər istiqamətlərdə güclü, böyük layihələr həyata keçirmək üçün qarşılıqlı yaxşı istəyimiz var.

İlham Heydər oğlu, məmnunluqla sözü Sizə verirəm. Buyurun.

**davamı 3-cü səhifədə**

əvvəli 2-ci səhifədə

# Növbəti dövlət səfəri...

x x x

Qardaş Özbəkistana səfərə dəvətə, qonaqpərvərliyə, Azərbaycana və xalqımıza xoş münasibətinə, həmçinin ikitərəfli münasibətlərimizin inkişafına verdiyi şəxsi töhfəyə görə Prezident Şavkat Mirziyoyevə təşəkkürünü ifadə edən Prezident İlham Əliyev iclasdan əvvəl nümayiş etdirilən videoçarxda hazırda üzərində işlənilən layihələrin peşəkar şəkildə təqdim olunduğunu, onların bir hissəsinin artıq reallaşdığını, bir hissəsinin isə həyata keçiriləcəyini bildirib. "Əsas məsələ ondan ibarətdir ki, qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi ilə bağlı konkret gündəliyimiz var. Əminəm ki, artıq müəyyən edilmiş layihələr həyata keçirildikcə yeni layihələr də meydana çıxacaq və bu videotəqdimata daha çox vaxt lazım olacaq. Əslində, mən belə bir təqdimata çox müsbət mənada təəccübləndim, çünki burada bu gün bizi birləşdirən əsas istiqamətlər öz əksini tapıb".

Prezident İlham Əliyev iki ölkə arasındakı dostluq münasibətlərini və Özbəkistanın əldə etdiyi uğurları yüksək qiymətləndirərək deyib: "İlk növbədə, Sizi, hörmətli Şavkat Miromonoviç, Özbəkistandakı bütün qardaşlarımızı ölkənin inkişafında, onun potensialının möhkəmləndirilməsində, həm sosial-iqtisadi sahədə, həm də beynəlxalq arenada əldə olunan böyük uğurlar münasibətilə təbrik etmək istərdim. Bu gün Özbəkistan böyük beynəlxalq nüfuza malik dövlətdir. Bu isə ilk növbədə Sizin xidmətinizdir. Siz ölkəni inkişaf etdirmək, onun potensialını möhkəmləndirmək, o cümlədən Özbəkistanın beynəlxalq arenadakı rolunu gücləndirmək üçün yorulmadan çalışır, əmək sərf edirsiniz. Sizin də düzgün qeyd etdiyiniz kimi, biz ikitərəfli formatda, iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda həmişə bir-birimizi dəstəkləyirik. Bu, avtomatik rejimdə baş verir".

Dövlətimizin başçısı, həmçinin Cənubi Qafqazda gedən müsbət proseslərə verdiyi qiymətə görə Şavkat Mirziyoyevə təşəkkür edib. Bildirib ki, Cənubi Qafqazda sülhün təmin olunması nəticəsində bu gün region, nəhayət rahat nəfəs ala və dinc inkişafın üstünlüklərini görə bilər.

Birgə İnvestisiya Fondunun potensialına toxunan Azərbaycan Prezidenti deyib: "Mənə məruzə ediblər ki, 500 milyon dollardan təxminən 160 milyonu artıq müəyyənləşdirilib. Təbii ki, düşünürəm, biz bu vəsaiti tezliklə istifadə edəcəyik və əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirəcəyik. Həmçinin deməliyəm ki, Azərbaycanın müxtəlif ölkələrlə bu cür əməkdaşlıq formatları var. Amma mən deyərdim ki, ən səmərəli və nəticəyönümlü fond məhz Özbəkistan-Azərbaycan İnvestisiya Fondudur. Lakin bizim nəzərdə tutduğumuz və artıq müqavilələri bağlanmış layihələr üzrə investisiyaların həcmi fondun həcmindən xeyli çoxdur. Bu təqdimatda deyildi ki, təkcə Özbəkistanın turizm sektoruna 5 milyard dollar investisiya yatırılması planlaşdırılır. Həmçinin Daşkənddə həyata keçirilən layihələr, - hotel kompleksləri və yaşayış kompleksləri, - bu İnvestisiya Fondunun çərçivəsindən kənardadır. Ona görə də ümumilikdə investisiya portfelinə baxsaq, onun müəyyən etdiyimiz 500 milyon dollardan xeyli böyük olduğunu görərik".

Prezident İlham Əliyev Qarabağın bərpa edilməsi prosesində göstərilən dəstəyə görə təşəkkürünü bildirərək vurğulayıb ki, Özbəkistan və onun dövlət başçısı azad olunmuş ərazilərə praktiki yardım göstərən ilk ölkə və ilk Prezident olub. "Mirzə Uluqbəy adına məktəb bu gün artıq orada təhsil ala biləcək şagirdlərin demək olar ki, hamısını qəbul edib. Məktəb təxminən 1000 nəfərlikdir, son məlumatlara görə isə orada artıq bir neçə yüz şagird təhsil alır və bu məktəb həm də dostluğumuzun, qardaşlığımızın bir rəmzidir. Həmçinin biz Sizinlə birlikdə Xankəndidə özbək dostlarımız tərəfindən rekord qısa müddətdə yaradılmış tikiş fabrikini ziyarət etmişik. Biz Xankəndidə birlikdə kollektivlə də görüşmüşük. Təbii ki, Qarabağ regionunda iş yerlərinin yaradılması, - xüsusilə qadınlar üçün, - hazırda böyük əhəmiyyət daşıyır. Yenə də müasir istehsal müəssisəsinin yaradılması və 200-dən çox iş yerinin açılması üzrə ilk investisiya layihəsi Özbəkistan tərəfindən həyata keçirilir. Buna görə Sizə çox minnətdaram", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Özbəkistanın avtomobil sənayesindəki təcrübəsinin bu gün Azərbaycana da ötürüldüyünü xatırladan dövlətimizin başçısı qeyd edib ki, ilk layihə həyata keçirilib, lakin hazırda tam istehsal dövründən söhbət gedir. Hacıqabulda 80 milyon dollardan çox investisiya yatırılması planlaşdırılır və ikinci zavod tikilir. Bu zavod, əslində, ölkəmizin avtomobil sənayesinə böyük təkan verəcək.

Kənd təsərrüfatının inkişafı ilə bağlı layihələrin də uğurla icra olunduğunu vurğulayan Prezident İlham Əliyev deyib: "Nəqliyyat-tranzit sahəsində artıq müəyyən nəticələrimiz var. Mənə məruzə ediblər ki, Özbəkistandan Azərbaycan ərazisindən yüklərin həcmi artır. Özbəkistan üçün bərə tikintisini də sürətləndirmək zəruridir. Şavkat Miromonoviçlə bu barədə danışmışıq. Məsələ həllini tapıb, sadəcə, bu layihəni prioritet siyahıya daxil etmək lazımdır. Hazırda gəmiqayırma zavodumuzda, eyni zamanda, təxminən on müxtəlif modifikasiyalı - bərə, tanker və quru yük gəmiləri inşa edilir. Zavod indi yüz faiz gücü ilə işləyir".

Nəqliyyat sektorundakı layihələrə toxunan dövlət başçısı Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində işlərin fəal şəkildə davam etdirildiyini bildirib. Azərbaycanın əsas hissəsində bu layihənin gələn il başa çatacağını vurğulayan Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında da müvafiq işlərə başlanıldığını diqqətə çatdırıb. Konseptual yanaşmanın Naxçıvan dəmir yolunu Azərbaycan dəmir yollarının tərkib hissəsi kimi görməkdən ibarət olduğunu qeyd edən dövlət başçısı bu marşrut üzrə investisiya yatırmaq, mənfəət əldə etmək və daşıma həcmlərini təmin etmək istəyən maraqlı şirkətlər və ölkələrin iştirakı ilə beynəlxalq konsorsiumun yaradılmasının planlaşdırıldığını vurğulayıb.

"Məlumat üçün bildirmək istəyirəm ki, Ermənistanda da işlər gedir, amerikalı tərəfdaşlarımız bizi bu barədə müntəzəm məlumatlandırırlar. Bizə deyilənlərə görə, Ermənistan ərazisində tikinti ya bu ilin sonunda, ya da gələn ilin əvvəlində başlayacaq. Lakin oradakı məsafə cəmi 42 kilometrdir, Naxçıvan Muxtar Respublikasının ərazisində isə 194 kilometrdir. Bəli, buna görə də işə başladıq, bütün hallarda onu tamamlayacağıq. Amma müxtəlif şirkətlərdən maraq olduğunu bildiyimiz üçün sadəcə məlumat vermək istərdim ki, əgər maraq varsa, təklif olunan konsorsiumda iştirak etmək imkanı mövcuddur", - deyə dövlətimizin başçısı əlavə edib.

Həmçinin diqqətə çatdırılıb ki, Azərbaycan Bakıdan Ermənistan sərhədinə qədər təxminən 400 kilometr məsafədə olan mövcud dəmir yolu xəttinin bir hissəsini sıfırdan yenidən qurur və modernləşdirir. Xəttin Naxçıvan hissəsi isə təxminən 200 kilometrdir. Bu, Orta Dəhlizin əhəmiyyətli bir qolu olacaq.

Azərbaycanın Mərkəzi Asiya ölkələrinin Məşvərət Görüşünə tamhüquqlu üzv kimi cəlb olunmasında Özbəkistan Prezidentinin xüsusi rolunu vurğulayan dövlətimizin başçısı bu qərarın Daşkənddə keçirilən görüşdə qəbul edilməsinin rəmzi məna daşıdığını diqqətə çatdırıb və buna görə təşəkkürünü ifadə edib. Azərbaycanın bu formatda tamhüquqlu iştirakının təmin edilməsində Özbəkistan liderinin şəxsi rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq çərçivəsində məsuliyyətlidir və bu işə böyük həvəslə yanaşır.



Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə çay masası əsnasında təkbətək görüşü olub.



***

Avqustun 23-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida və Şaxnoza Mirziyoyevalar ilə birlikdə Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olublar.

Bu mərkəz Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin qərarı ilə təsis edilib. On hektardan çox ərazini əhatə edən mərkəz Səmərqənd şəhərinin qədim memarlıq abidələri üslubunda inşa olunub. Burada 65 metr hündürlüyündə günbəz də var. Mərkəzdə bir neçə şöbə, o cümlədən nadir əlyazmaların milli reyestrinin aparılması şöbəsi, əlyazmalar fondu, kitabxana və arxivlər var. Burada müxtəlif tarixi dövrlərə aid əşyalar, həmçinin əsərlər təqdim olunur. Əcdadların yaradıcılıq potensialı müasir texnologiyalar və rəqəmsal cihazların köməyi ilə nümayiş etdirilir. Mərkəzin binasında 100 min əlyazma və 1 milyondan çox kitabın olduğu kitabxana yerləşir. Buradakı muzey ekspozisiyası "İslamdan əvvəl sivilizasiyalar", "Birinci İntibah dövrü", "İkinci İntibah dövrü", "XX əsrdə Özbəkistan", "Yeni Özbəkistan - Üçüncü İntibahın əsası" və "Müqəddəs Quran" adlı zallardan ibarətdir.

Ekspozisiyanın mərkəzində yerləşən "Müqəddəs Quran" zalında müsəlman dünyasının mənəvi incisi - "Osman Quranı" saxlanılır. Zalda müxtəlif dövrlərdə yazılmış "Quran"ın əlyazma nüsxələri və özbək dilinə tərcümələri təqdim olunur.

Yüzlərlə alim, ekspert, dini və ictimai xadim layihənin reallaşmasında iştirak edib. Bu Mərkəz UNESCO və ICESCO da daxil olmaqla, bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.



***

Avqustun 23-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida və Şaxnoza Mirziyoyevalar ilə birlikdə Daşkənddə "Oxunguzar" incəsənət məkanında olublar.

Bu layihə Özbəkistan Respublikasının Prezident Administrasiyası yanında Mədəniyyət və İncəsənətin İnkişafı Fondunun sifarişi ilə həyata keçirilib.

İncəsənət məkanında keramika, tikiş, zərgərlik məmulatları, həmçinin ağac üzərində oyma nümunələrinin nümayiş olunduğu sərgilər təşkil edilir.

Burada, eyni zamanda, müxtəlif görüşlər, mühazirələr və maarifləndirici tədbirlər keçirilir.



***

Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın ən böyük şəhərsalma layihəsi - "Yeni Daşkənd"lə tanış olub.

Layihə ölkə iqtisadiyyatını, investisiya siyasətini, nəqliyyat sistemini, təhsili, ekologiyanı və rəqəmsal texnologiyaları vahid məkanda birləşdirən yeni şəhərsalma modelidir. Layihə tam yekunlaşdıqdan sonra 260 mindən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Hazırda tikinti sahələrində 10 mindən çox işçi çalışır. "Yeni Daşkənd"də tətbiq edilən mühüm innovativ həllərdən biri elektrik enerjisinin istehsalı, istilik və soyutma proseslərinin vahid texnoloji zəncir çərçivəsində idarə olunduğu trigenerasiya texnologiyasıdır.

Ərazidə 60-dan çox dövlət qurumu üçün müasir inzibati binalar, mehmanxanalar, restoranlar, xidmət mərkəzləri, biznes kompleksləri, turizm obyektləri, "Yeni Özbəkistan" Universiteti, Özbəkistan Milli Kitabxanasının yeni kompleksi, elmi laboratoriyalar, multimedia mərkəzləri, muzeylər, idman qurğuları və tələbə şəhərciyi inşa edilir. Burada inşa olunan "Şərq Baharı" kompleksi Mərkəzi Asiyanın ən iri yaşayış layihələrindən biri olacaq. Ərazisi 95 hektar olan kompleksdə təxminən 15 min mənzilin inşası planlaşdırılır.




***

Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Yeni Daşkənd şəhərində "Azərbaycan" parkının təməlini qoyublar.

Parkda Azərbaycanın zəngin mədəniyyətini, çoxəsrlik tarixini və ənənələrini əks etdirəcək ictimai məkan yaradılacaq. Park Azərbaycanın və Özbəkistanın qardaş xalqlarının daha da yaxınlaşması baxımından mühüm rol oynayır.

Bakıda "Özbəkistan", Yeni Daşkənddə isə "Azərbaycan" parkının salınması xalqlarımız arasındakı çoxəsrlik dostluğun, qarşılıqlı hörmətin və mədəni yaxınlığın, həmçinin Azərbaycanla Özbəkistanın möhkəm və dinamik inkişaf edən münasibətlərinin növbəti rəmzi olacaq.

***

Avqustun 23-də Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin təltifolunma mərasimi keçirilib.

Əvvəlcə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev çıxış edərək dedi:

-Hörmətli İlham Heydər oğlu, Özbəkistana bir daha xoş gəlmisiniz. Bizim hər bir görüşümüz tarixdir. Bugünkü səfər də tarixidir. Bu gün bütün istiqamətləri, hər bir layihəni çox dəqiqliklə nəzərdən keçirdik və İlham Heydər oğlu olduqca ciddi dəstək verdi. Biz yeni Yol Xəritəsini qəbul etdik, ticarət dövriyyəsini bir milyard dollara çatdırmaq barədə razılıq əldə etdik. Əlbəttə, bu, son həddi deyil.

Əziz dostlar, Azərbaycan Prezidentinin Özbəkistana səfəri tarixi hadisədir. Biz görülən işlər və iki liderin iradəsi sayəsində nələrə nail olduğumuz barədə özümüzə daim hesabat verməliyik. Bu, qısa müddətdə əldə olunan böyük nəticədir. İlham Heydər oğluna dedim ki, 27 il aramızda heç bir nəticə olmayıb. Başa düşənlər bunu anlayır. Beləliklə, bu gün ikitərəfli münasibətlərin möhkəmləndirilməsində yeni səhifə açırıq. Qardaş Azərbaycanın nailiyyətlərinə səmimi-qəlbdən heyranıq. Hörmətli İlham Heydər oğlu, Azərbaycan Sizin rəhbərliyiniz ilə ölkənin inkişafında və beynəlxalq arenada böyük uğurlar qazanır. Yaxın dost, yaxın qonşu və müttəfiq olaraq, biz həmişə bu nəticələrə sevinirik. Siz ölkənin ərazi bütövlüyünü bərpa etməklə bir daha xalqınızı birləşdirdiniz. Siz dahi atanız, hörmətli Heydər Əliyevin işini layiqincə davam etdirirsiniz, onun müdrik vəsiyyətlərini, arzularını və istəklərini ardıcıl olaraq həyata keçirirsiniz. Azərbaycana səfərlərim zamanı şəxsən Qarabağda baş verən böyük dəyişikliklərin və bölgənin dinamik inkişafının şahidi oldum. Həmişə deyirəm ki, Azərbaycan bizim yaxın, etibarlı, zamanın sınağından çıxmış dostumuz və tərəfdaşımızdır.

Əsrlərdən bəri iki ölkənin xalqlarını qardaşlıq münasibətləri, ortaq tarix və din, oxşar mədəniyyət, dil və adət-ənənələr birləşdirir. İlham Heydər oğlu, Siz Özbəkistanla çoxşaxəli əməkdaşlığın inkişafına böyük töhfə vermisiniz. Siz ölkələrimiz arasında müttəfiqliyin ön sıralarında olmusunuz.

Əminəm ki, Əbədi dostluq haqqında Müqavilə münasibətlərimizi yeni məzmunla zənginləşdirəcək. Bu gün ölkəmizin əsl dostu olan Sizə bu nüfuzlu mükafatı - ən yüksək dərəcəli "Dostluq" ordenini təqdim etməkdən xüsusilə məmnunam. Bu, Özbəkistanla Azərbaycan arasında əbədi dostluq, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə Sizin verdiyiniz böyük töhfəyə hörmətin və minnətdarlığın rəmzidir. Sizi ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram. Bilirsiniz, bunun baş verməsi məni çox sevindirir. Fərmanı məmnunluqla imzaladım, bu günün gəlib çatması ilə fəxr edirdim. İlham Heydər oğlu, Sizi bu münasibətlə təbrik edirəm. Bu, Özbəkistan dövlətinin ən yüksək ordenidir və Siz əmin ola bilərsiniz ki, buna layiqsiniz. Təbrik edirəm.

***

Prezident Şavkat Mirziyoyev ali dərəcəli "Dostluq" ordenini dövlətimizin başçısına təqdim etdi.

***

Sonra çıxış edən Prezident İlham Əliyev dedi:

-Hörmətli Şavkat Miromonoviç.



Əziz dostlar.

Əvvəlcə, fəaliyyətimə verilən belə yüksək qiymətə görə Sizə səmimi-qəlbdən minnətdaram. Siz dediyiniz kimi, ali dərəcəli, - Azərbaycan dilində də bu, belə səslənir - "Ali dərəcəli", - "Dostluq" ordeni ilə təltif olunmağım mənim üçün böyük şərəfdir. Belə qardaş münasibətinə görə Sizə ürəkdən təşəkkür etmək istərdim. Artıq dediyim kimi, bu, mənim üçün böyük şərəfdir və bu yüksək mükafata layiq olmaq, xalqlarımız, dövlətlərimiz arasında dostluğu və qardaşlığı möhkəmləndirmək naminə fəaliyyətimə davam etmək üçün bundan sonra da bütün səylərimi əsirgəməyəcəyəm.

Şavkat Miromonoviç çıxışında münasibətlərimizin strateji müttəfiqlik xarakterini qeyd etdi. Biz buna nisbətən qısa müddət ərzində nail olmuşuq. Özbəkistana səfərlərimin xronologiyasına baxanda ən intensiv dövr son dörd-beş ilə təsadüf edir. Bu müddət ərzində mən Özbəkistana artıq yeddinci dəfədir səfər edirəm, Şavkat Miromonoviçin Azərbaycana səfərlərinin sayı isə həmin dövrdə daha çox olub.

Bu, sadəcə statistikadır. Amma bu statistikanın arxasında, ilk növbədə, ortaq köklərimiz, xalqlarımızın yaxınlığı, mədəniyyətlərimizin, dillərimizin və adət-ənənələrimizin yaxınlığı, bir-birimizə qarşı səmimi münasibət, özbək və Azərbaycan xalqları arasında əsrlər boyu davam edən dostluq dayanır. Bu, həmin təməldir - əlbəttə, qardaşlığımızın bu binasını necə möhkəmləndirdiyimiz, hansı layihələri həyata keçirdiyimiz, qarşılıqlı fəaliyyətimizə və ölkələrimizin inkişafına yönəlmiş müxtəlif təşəbbüslərdə necə birgə iştirak etdiyimiz.

Əlbəttə, bu yüksək mükafatı alarkən Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevin ikitərəfli münasibətlərimizin möhkəmlənməsindəki xüsusi rolunu, xalqımıza qarşı səmimi münasibətini və Qarabağın bərpasında göstərdiyi köməyi qeyd etmək istərdim. Mən bu gün artıq bu barədə danışdım və Azərbaycanda hamı bilir ki, dünyada Qarabağın bərpasında bizə ilk kömək edən Prezident, ilk ölkə Prezident Mirziyoyev və Özbəkistandır.

Təbii ki, Özbəkistana hər dəfə səfər edəndə artıq bir çox yerləri gəzmişəm, Daşkəndin necə gözəlləşdiyini, binaların, küçələrin və infrastrukturun necə yeni görkəm aldığını, bütün bu işlərin necə böyük zövqlə, böyük sevgi ilə və yüksək keyfiyyətlə görüldüyünün şahidi olmuşam. Əziz qardaşımın "Yeni Daşkənd" layihəsi müasir şəhərsalmanın nadir əsəridir, Özbəkistan paytaxtının gələcək inkişafı ilə bağlı onun vizyonunun nəticəsidir.

Əlbəttə ki, bu, həm də Özbəkistanın inkişafının və qüdrətinin rəmzidir. Heç də hər ölkə sıfırdan şəhərlər tikmək imkanına malik deyil. Buraya Səmərqəndin necə dəyişdiyini də əlavə etməliyəm. Bunu ilk səfərimdən və nisbətən bu yaxınlarda orada olduğumuz vaxtdan yaxşı xatırlayıram. Keçən səfərimdə olduğum Xivə də çox gözəl təəssürat yaratdı. Tarixi abidələrin qorunması, tarixi memarlığa diqqət yetirilməsi, həmçinin şəhərsalmada müasir inkişaf tam və müvafiq şəkildə vəhdət təşkil edir. Bütün bunlar Şavkat Miromonoviçin Özbəkistanı gücləndirmək, ölkənin potensialını artırmaq, onun iqtisadiyyatını və sənayesini inkişaf etdirmək üzrə məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Bu gün kənd təsərrüfatı, sənaye, dağ-mədən və energetika sahələrində birgə layihələrdən xeyli danışdıq. Lakin ölkələrimizin bu potensialı olmasaydı, bunlar mümkün olmazdı. Bu zəmin olmasaydı, birgə layihələr haqqında düşünə bilməzdik, yalnız ölkə daxilində işləri necə yaxşılaşdırmaq barədə düşünərdik. Bu gün isə biz qarşılıqlı fəaliyyətə, birgə investisiyalara diqqət yetiririk. Birgə investisiyalar milyardlarla dollar təşkil edəcək. Bunlar artıq planlar deyil, konkret layihələr, konkret müqavilələr və bizim konkret investisiya təşəbbüslərimizdir. Əlbəttə ki, dost və qardaş olaraq hörmətli Şavkat Miromonoviçi bütün nailiyyətləri münasibətilə təbrik etmək istərdim. Biz buna ürəkdən sevinirik. Qardaşlığa və müttəfiqliyə əsaslanan ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsinə verdiyi böyük töhfəyə görə Şavkat Miromonoviç Mirziyoyevi Azərbaycanın ən ali ordeni - "Heydər Əliyev" ordeni ilə təltif etmək haqqında Sərəncam imzaladım.

***

Prezident İlham Əliyev "Heydər Əliyev" ordenini Özbəkistanın dövlət başçısına təqdim etdi.

davamı 4-cü səhifədə

əvvəli 3-cü səhifədə

# Növbəti dövlət səfəri...

***

Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Özbəkistan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Şavkat Mirziyoyevin bəyanatı

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli media nümayəndələri.

Sizin iştirakınızla Azərbaycan Respublikasının Prezidenti, mənim əziz qardaşım, hörmətli İlham Heydər oğlu Əliyevi və bütün Azərbaycan nümayəndə heyətinin üzvlərini qonaqpərvər Özbəkistan torpağında bir daha ürəkdən salamlamaqdan çox məmnunam.

Azərbaycan Prezidentinin Özbəkistana hazırkı dövlət səfəri mübaliğəsiz tarixi əhəmiyyət daşıyır. Biz bu barədə bu gün dəfələrlə danışdıq, çünki imzaladığımız bütün sənədlər, razılaşdığımız bütün məsələlər ikitərəfli əməkdaşlıq üçün tarixi hadisələrdir. Bu gün biz Əbədi dostluq haqqında Müqavilə imzaladıq. Təsəvvür edirsinizmi, regionlar, biznes, hökumətlər və parlamentlərarası əlaqələr artıq nə qədər yüksək səviyyəyə çatıb. Bu, sadəcə bir sənəd deyil, qarşılıqlı əlaqələri dərinləşdirmək, əməkdaşlıq imkanlarını genişləndirmək və ümumi gələcək qurmaq istiqamətində birgə istəyimizin əksidir.

Əziz dostlar, biz Özbəkistanda qardaş Azərbaycanın hər bir uğuruna, onun davamlı iqtisadi inkişafına və artan beynəlxalq nüfuzuna həmişə səmimi-qəlbdən sevinirik. İlham Heydər oğlunun siyasi kursunun məqsədyönlülüyünü xüsusilə qeyd etmək istərdim. Bu kurs sayəsində ölkənin bütövlüyünü bərpa etmək, çoxdan gözlənilən sülhə və sabitliyə nail olmaq mümkün olub. Qədim Qarabağ torpağı yenidən dirçəlir. Burada sosial infrastruktur fəal şəkildə qurulur, iş yerləri və müəssisələr yaradılır. İnsanların dinc və firavan həyata qayıtması üçün hər şey edilir. Azərbaycan bizim etibarlı müttəfiqimiz, strateji tərəfdaşımız və qardaş dövlətdir. Münasibətlərimizin təməlində vahid sivilizasiya kodu, ümumi tarixi köklər, çoxəsrlik dostluq, sarsılmaz mənəvi dəyərlər, oxşar mədəniyyət və ənənələr dayanır. Məhz bu dərin bağlılıq münasibətlərimizi monolit və xarici konyunkturun təsirinə qarşı dayanıqlı edir.

Hörmətli jurnalistlər, hazırkı sammitdən əvvəl ciddi hazırlıq işləri aparılıb. Hökumətlərarası Komissiyanın, biznes şurasının və regional forumların iclasları məhsuldar keçib. Dövlət səfərinin əsas tədbiri olan Ali Dövlətlərarası Şuranın üçüncü iclasını indicə keçirdik, çox mühüm qərarlar qəbul etdik, çoxşaxəli münasibətlərimizin bütün spektrini ətraflı müzakirə etdik, nümayəndə heyətlərinin üzvlərinin əsas istiqamətlər üzrə məruzələrini dinlədik. İlk növbədə, söhbət ticarət, sənaye kooperasiyası, energetika, nəqliyyat, mədəniyyət və digər sahələrdən gedir. Siyasi dialoqu gücləndirmək, parlamentlər və hökumətlər, sənaye qurumları və regionlar arasında fəal əlaqələri dəstəkləmək barədə razılığa gəldik. İqtisadiyyat məsələlərinə xüsusi diqqət yetirdik, əmtəə dövriyyəsinin həcmini 1 milyard dollara çatdırmaq imkanlarını müzakirə etdik. Lakin biz razılaşdıq ki, bu, son hədd deyil, bunu dəfələrlə artırmaq mümkündür.

Biz bunu edəcəyik. Komandalarımızın bütün hesablamaları, resursları və səlahiyyətləri var. Bu mühüm göstəriciyə nail olmaq üçün konkret tədbirləri nəzərdə tutan müvafiq proqram bu gün qəbul edilib. Həmçinin sənaye kooperasiyasının yeni inkişaf istiqamətlərini müəyyən etdik, ilk növbədə iqtisadiyyatlarımızın bir-birini qarşılıqlı şəkildə tamamladığı sahələrdə. Bu səfərə qədər energetika, geologiya, kimya, tikinti, maliyyə, kənd təsərrüfatı və digər sahələrdə kooperasiya layihələrindən ibarət əhatəli layihələr portfeli formalaşdırılıb.

Bir neçə il əvvəl yaradılmış investisiya fondu bu layihələrin irəlilədilməsində mühüm rol oynayır və qısa müddət ərzində birgə biznes təşəbbüslərimizin dəstəklənməsinin səmərəli mexanizminə çevrilib. Həmçinin regionlarımızın imkanlarından maksimum istifadə etmək barədə razılığa gəldik. Məhz regionlar iqtisadi-ticari tərəfdaşlığın genişləndirilməsinin əsas hərəkətverici qüvvəsidir. Bu məqsədlə cari ayda Daşkənd şəhərinin, Buxara və Namanqan vilayətlərinin hakimləri Azərbaycana səfər ediblər. Bu gün isə onlar buradadırlar. Səmimi demək istəyirəm ki, onlar mənə gördükləri işlər barədə danışırlar. İlham Heydər oğlu, mənə çox xoşdur ki, onların real nəticələri var.

Əməkdaşlığın daha bir mühüm istiqaməti nəqliyyat-tranzit sahəsidir. Trans-Xəzər dəhlizinin potensialını birlikdə inkişaf etdirəcək, logistika infrastrukturunun səmərəliliyini artıracaq, daşımaları stimullaşdıracağıq. Bunun üçün Xəzər dənizində birgə donanmanın yaradılması üzrə işi fəallaşdıracağıq.

Xalqlarımız arasında etibarlı dostluq körpüsü rolunu sıx mədəni-humanitar əlaqələrimiz oynayır. İlham Heydər oğlu ilə birlikdə Nizami Gəncəvi adına Pedaqoji Universitetin yeni binasını açacağıq.

Bilirsiniz, mən bunu çoxdan planlaşdırırdım, çünki universitet 1935-ci ildə tikilib, lakin Daşkənd şəhərindəki universitet müxtəlif yerlərdə yerləşib və bu günün müasir səviyyəsinə uyğun gəlmirdi. Mən təməl daşı qoyarkən ümid edirdim ki, bunu mütləq İlham Heydər oğlu ilə birlikdə açacağıq və bu gün həmin tarixi hadisə həyata keçiriləcək. “Yeni Daşkənd”də Azərbaycan parkının tikintisinə start verəcəyik. Əminəm ki, bu obyektlər sarsılmaz qardaşlığımızın və xalqlarımızın yaxınlığının parlaq rəmzlərinə çevriləcək.

Qarşılıqlı humanitar əlaqələrimiz çox dinamik qrafik üzrə inkişaf edir. İlin sonunadək Özbəkistanda Azərbaycan Mədəniyyəti Günlərini və Azərbaycanda ali məktəb rektorlarının İkinci Forumunu keçirəcəyik. Əlamətdar hadisə Nizami Gəncəvi



və Əlişir Nəvainin ədəbi irsinə həsr olunmuş birgə bədii filmin yaradılması olacaq. Biz İlham Heydər oğlu ilə bu barədə razılığa gəlmişik.

İctimaiyyət və gənclər arasında əlaqələri hər vasitə ilə dəstəkləyəcək, ünsiyyət, yaradıcılıq və innovativ ideyaların mübadiləsi üçün məkanlar yaradacağıq.

Bildiyiniz kimi, FIFA-nın qərarına əsasən, gələn il Özbəkistan və Azərbaycan gənclər arasında futbol üzrə dünya çempionatına birlikdə ev sahibliyi edəcəklər - bu, əhəmiyyətinə və nüfuzuna görə dünyada ikinci turnirdir. Bu möhtəşəm idman hadisəsi çərçivəsində ölkələrimiz “İki ölkə - bir çempionat” adlı genişmiqyaslı dövlət proqramının həyata keçirilməsini təklif edib.

Sonda vurğulamaq istəyirəm ki, Özbəkistan və Azərbaycan arasında əməkdaşlıq artıq ikitərəfli gündəlik çərçivəsindən xeyli kənara çıxıb. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşləri formatına qoşulması ilə bağlı tarixi qərar Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında vahid etimad, mehriban qonşuluq və qarşılıqlı bağlılıq məkanının formalaşdırılması istiqamətində mühüm addım oldu. Biz BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər strukturlar çərçivəsində əsas beynəlxalq platformalarda müttəfiqlik dialoqunu gücləndirərək diplomatik fəaliyyətimizi ardıcıl şəkildə əlaqələndiririk.

Əziz dostlar, həyatın özü və müzakirələrimizin dərinliyi Özbəkistan-Azərbaycan praktiki əməkdaşlıq gündəliyinin nə qədər geniş vüsət aldığını və heyrətamiz dinamika qazandığını nümayiş etdirir.

Bu gün keçirilən məhsuldar danışıqların yekunlarına əsasən, qarşılıqlı fəaliyyətimizin ən mühüm sahələri üzrə əhəmiyyətli sazişlər paketini təsdiq etdik. Hörmətli İlham Heydər oğlu, bununla əlaqədar qətiyyətli mövqeyinizə və bütün təkliflərimizi dəstəklədiyinizə görə Sizə səmimi təşəkkürümü bildirirəm. Əminəm ki, tarixi səfərin nəticələri tərəfdaşlığımızı konkret məzmunla zənginləşdirəcək, birgə layihələr və iki qardaş ölkənin davamlı inkişafı üçün yeni üfüqlər açacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı

- Təşəkkür edirəm, hörmətli Şavkat Miromonoviç.

Əziz dostlar.

İlk növbədə, dəvətə, qonaqpərvərliyə, Azərbaycana və Azərbaycan xalqına göstərdiyiniz belə səmimi münasibətə görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim.

Bildiyiniz kimi, biz də Özbəkistana, Özbəkistanın qardaş xalqına eyni xoş və qardaşlıq hisslərini bəsləyirik. Düşünürəm ki, bugünkü səfərin nəticələri də bunu bir daha təsdiqləyir. Lakin ilk növbədə bir daha qeyd etmək istərdim ki, mən Daşkəndə ilk dəfə səfər etmirəm və hər dəfə buraya gələndə sürətli inkişafın şahidi oluram. Bunu hər sahədə görmək mümkündür: həm böyük layihələrdə, həm də detallarda. Bu gün Daşkənd və bütün Özbəkistan yüksəliş dövrünü yaşayır. Bu isə mənim əziz qardaşım Şavkat Miromonoviçin Özbəkistanın potensialının gücləndirilməsinə, beynəlxalq arenadakı mövqeyinin möhkəmləndirilməsinə və ən mühüm sosial-iqtisadi məsələlərin həllinə yönəlmiş fəaliyyətinin nəticəsidir.

Şavkat Miromonoviç Özbəkistana rəhbərlik etməyə başlayanda vəziyyət tamamilə başqa cür idi. Özbəkistan vətəndaşları bunu yaxşı bilirlər, biz də bunu bilirik. Buna görə də ölkəni inkişaf yoluna çıxarmaq, əslində, dövlətin inkişafı üçün iqtisadi əsasları sıfırdan formalaşdırmaq, iqtisadiyyatı şaxələndirmək, sənayeni inkişaf etdirmək, kənd təsərrüfatını, yenə də şaxələndirilmiş şəkildə inkişaf etdirmək, iqtisadiyyatın böyük potensiala malik olan və potensialını qoruyub saxlayan sahələrinə investisiyalar cəlb etmək üçün o, böyük səylər göstərməli oldu. Bu gün isə biz tamamilə fərqli Özbəkistan görürük. Bu, dünya birliyinin böyük hörmət bəslədiyi, sənayenin inkişafı, kənd təsərrüfatı, energetika və nəqliyyat infrastrukturu ilə bağlı məsələlərin operativ və səmərəli şəkildə həll olunduğu Özbəkistandır. Şavkat Miromonoviçin ikitərəfli münasibətlərimizlə bağlı söylədiyi bütün fikirlər ilk növbədə onun və komandasının Özbəkistan üçün gördüyü işlərə aiddir.

Mən bu gün artıq bu barədə danışmışam: əgər bu təməl, bu potensial olmasaydı, heç bir birgə layihəni həyata keçirmək mümkün olmazdı. Ümumiyyətlə, Şavkat Miromonoviç Özbəkistana rəhbərlik etməzdən əvvəl ölkələrimiz arasında heç bir birgə layihə yox idi. Bu gün biz bir milyardlıq ticarət dövriyyəsi hədəfindən hansısa uzaq bir xəyal kimi deyil, yəqin ki, bir neçə ildən sonra çatacağımız nəticə kimi danışırıq. Bu gün müzakirə olunanlar, iqtisadiyyatlarımızın tələb etdiyi və ehtiyac duyduğu sahələrdə qarşılıqlı investisiya layihələri - bütün bunlar hər iki ölkə paralel kursla inkişaf etməsəydi, mümkün olmazdı. Bu paralel kurs isə bu gün artıq daha geniş geosiyasətin mühüm amilidir. Çünki Şavkat Miromonoviçin qeyd etdiyi kimi, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq formatına qoşulmasından sonra, - yeri gəlmişkən, bu məsələdə onun xüsusi rolu olub, - əməkdaşlığın coğrafiyası genişlənib.

Bu gün Mərkəzi Asiya və Azərbaycan böyük potensiala, eyni zamanda, bundan da böyük inkişaf imkanlarına malik vahid geosiyasi və geoiqtisadi regiondur. Bu böyük, hətta deyərdim ki, yenidən yaradılmış və artıq kifayət qədər inteqrasiya olunmuş regionun inkişafının ümumi müsbət dinamikası da bu halda Özbəkistan və Azərbaycan arasında sıx qarşılıqlı əlaqələrdən asılıdır.

Bu gün danışdığımız layihələrdən hər birinin öz dəyəri var və Şavkat Miromonoviç qeyd etdiyi kimi, onların hamısı birlikdə münasibətlərin bənzərsiz xarakterini yaradır. Biz, praktik olaraq, enerji, nəqliyyat, investisiya layihələri, turizm, dağ-mədən sahəsində əməkdaşlıq, avtomobil sənayesi, kənd təsərrüfatı və emal sektorlarından tutmuş bütün istiqamətləri əhatə etmişik. Hətta bu gün ikitərəfli formatda rəsmi tədbirlərin sonunda yeni layihələrin təməlini qoyarkən və ya yeni layihələrə başlayarkən belə, bu layihələrin sadalanması əməkdaşlığımızın nə qədər çoxşaxəli olduğunu nümayiş etdirmək üçün kifayətdir. Bəli, mən hələ bankçılıq sahəsindəki əməkdaşlığımızı, aparıcı Azərbaycan bankının Özbəkistan bazarına və SOCAR-ın Özbəkistanın pərakəndə satış bazarına daxil olmasını xatırlatmağı unutmuşam. Neft və qaz kəşfiyyatı ilə bağlı layihələrdə isə biz artıq prinsipcə son mərhələdəyik və gələn il istismar quyularının qazılmasına başlamağa çox ümid edirik. Ümidvaram ki, bundan sonra kəşfiyyat-qazma və kəşfiyyat işləri yaxşı nəticələr verəcək.

Yəni bu gün biz artıq perspektivdən danışırıq. Fakt budur ki, bu gün ikitərəfli münasibətlər çox möhkəm - həm mənəvi, həm də maddi təməl üzərində qurulub. Bu sintezə dünya siyasətində nadir hallarda rast gəlinir və o, mövcuddur. Hər iki ölkənin hökumətlərinin inkişaf, daha yaxşı həyat şəraiti yaratmaq, səyləri birləşdirmək üçün çalışması bizim uğur qazanacağımızın ən mühüm amilidir.

Əlbəttə, Prezident Şavkat Miromonoviç Mirziyoyevin Qarabağa investisiya cəlb edilməsində müstəsna rolunu bir daha qeyd etmək istərdim. İlk yardım - Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik məktəbin tikintisi və Xankəndidə tikiş fabrikinə investisiyalar Özbəkistandan gəldi. İlk böyük sənaye müəssisəsi də Özbəkistanla bağlıdır. Həm Qarabağ bölgəsində, həm də bir çox digər bölgələrdə əlavə qarşılıqlı fəaliyyət planları mövcuddur. Həmçinin diqqətəlayiqdir ki, bu gün bir çox layihənin, - düşünürəm ki, on, bəlkə də daha çox, - açılışı və ya təməlinin qoyulması ilə bağlı tədbirlər zamanı regional layihələr də olub.

Layihələr təkcə Bakı və Daşkənddə deyil, baxmayaraq ki, əsas diqqət şübhəsiz ki, bu şəhərlərə yönəlib, həmçinin digər bölgələrdə də həyata keçirilir. Dünən keçirilən regionlararası əməkdaşlıq forumu böyük praktik maraq doğurur. Yəni indi bir çoxlarının sevdikləri təbirlə desək, səyləri birləşdirərək sinerji yaradırıq. İrəliləmək üçün çox dəqiq fəaliyyət planımız var və hər bir layihə konkret məzmunla zəngindir. Buraya artıq üçdəbiri layihələrlə təmin olunmuş investisiya fondunu, Azərbaycanın turizm infrastrukturuna və avtomobil sənayesinə investisiya layihələrini də əlavə etsək, bu artıq milyardlarla investisiya deməkdir.

İnvestisiyalar isə bir qayda olaraq, dost ölkələrə, bizim vəziyyətimizdə qardaş ölkələrə və adətən əlverişli investisiya mühitinin olduğu yerlərə yatırılır. Yenə də başladığım yerə qayıdıram. Şavkat Miromonoviçin böyük xidməti ondan ibarətdir ki, məhz o, öz islahatları, əzmkarlığı və müdrikliyi sayəsində həm beynəlxalq maliyyə qurumlarına, həm də qlobal aktorlara Özbəkistanı inkişafının uğurlu mərhələsində olan bir ölkə kimi görməyə imkan verən investisiya mühiti yaradıb.

Dostlarınız və qardaşlarınız olaraq, biz bundan səmimi-qəlbdən məmnunuq və əminəm ki, Sizin qeyd etdiyiniz bütün planlar reallaşacaq, ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq şəkildə birlikdə çalışacağıq. Şavkat Miromonoviç, sonda Sizin üçün əlverişli vaxtda Sizi Azərbaycana dövlət səfərinə dəvət etmək istərdim. Diqqətinizə görə təşəkkür edirəm.

***

Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılış mərasimində iştirak ediblər.

elmi-pedaqoji işçinin çalışdığı universitetdə 17 mindən çox tələbə, o cümlədən 6 Azərbaycan vətəndaşı olan tələbə, magistrant və müstəqil tədqiqatçı kimi təhsil alır. Eyni zamanda, burada dünyanın 13 ölkəsindən 250 nəfər təhsilini davam etdirir.

kampusunun tikintisi həyata keçirilir. Layihə, ümumilikdə, 20 min nəfərlik tədris korpuslarının, həmçinin 5 min nəfərlik tələbə yataqxanalarının yaradılmasını nəzərdə tutur. Yeni kampusda Nizami Gəncəvi Muzeyi və universitetin tarix muzeyləri olacaq.






Dövlət başçıları əvvəlcə ali təhsil ocağının rəmzi açılışını bildirən lenti kəsdilər.

Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev universitetin həyətində ağac əkdilər.

Azərbaycanın və Özbəkistanın dövlət başçılarına Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin tarixi və yaradılmış şərait barədə məlumat verildi.

1935-ci ildə Mərkəzi Asiya Dövlət Universitetinin Pedaqoji fakültəsinin bazasında Daşkənd Pedaqoji İnstitutu yaradılıb. 1947-ci ildə təhsil müəssisəsinin adı Nizami adına Daşkənd Dövlət Pedaqoji İnstitutu olaraq dəyişdirilib, 1998-ci ildən isə institut Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti kimi fəaliyyətini davam etdirib.

Universitetin məzunları arasında Özbəkistanın ədəbiyyatının, mədəniyyətinin, elminin və ictimai həyatının inkişafına mühüm töhfələr vermiş çoxsaylı görkəmli şəxsiyyətlər var.

Universitetin strukturunda 6 ali pedaqoji məktəb, həmçinin 1 Birgə Təhsil Ali Məktəbi və 1 magistratura şöbəsi fəaliyyət göstərir. Burada, ümumilikdə, 33 kafedra var. Universitetdə bakalavriat üzrə 38, magistratura üzrə isə 31 ixtisasda kadrlar hazırlanır. 730 müəllim və

Universitetdə beynəlxalq təhsil proqramlarının tətbiqinə də xüsusi yer ayrılır. Təhsil ocağı dünyanın 20 ölkəsindən 15 beynəlxalq təhsil təşkilatı və 127 universitetlə, həmçinin UNESCO və UNICEF ilə sıx əməkdaşlıq qurub. Burada 12 birgə təhsil proqramı həyata keçirilir. Həmçinin 4 beynəlxalq təhsil və mədəniyyət mərkəzi - Azərbaycan, Qazaxıstan, Cənubi Koreya və Çin mərkəzləri fəaliyyət göstərir.

Nizami Gəncəvi adına Milli Pedaqoji Universitet Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə anlaşma memorandumları imzalayıb. Bu əməkdaşlıq çərçivəsində birgə elmi tədqiqatlar və beynəlxalq konfranslar, təhsil və elmi təcrübə mübadiləsi, həmçinin mədəni-maarif əlaqələri inkişaf etdirilir. Ölkəmizlə əməkdaşlıq çərçivəsində Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin ilk 5 məzunu qrant əsasında bu universitetdə təhsil almaq hüququ qazanıb.

“Yeni Daşkənd” ərazisində 40 hektar sahədə universitetin yeni

Dövlət başçıları burada təhsil ocağının müəllim və tələbə heyəti ilə görüşüb, onlarla söhbət etdilər.

Görüşdə Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin Azərbaycan-Özbəkistan qardaşlığının rəmzi olduğu, universitetin yeni binasının isə iki ölkəni birləşdirən qədim və müasir dəyərləri, həmçinin xalqlarımızın birliyini əks etdirdiyi vurğulanıb.

Bildirilib ki, Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin fəaliyyətə başlamasından ötən üç il ərzində Azərbaycan və Özbəkistan şagirdləri arasında dostluq və əməkdaşlıq əlaqələri daha da inkişaf edib. Bu çərçivədə məktəbin müəllimləri Daşkənddə XXI əsr müəllimi üçün zəruri olan istiqamətlər üzrə təlimlərdə iştirak edirlər. Diqqətə çatdırılıb ki, məktəbin məzunlarının 20 faizi Daşkənddəki Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetə qəbul olunub.

Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin direktoru Həcər Mahmudova Azərbaycan-Özbəkistan qardaşlığının və təhsil sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə göstərdikləri dəstəyə görə prezidentlər İlham Əliyevə və Şavkat Mirziyoyevə minnətdarlığını ifadə etdi.

***

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Özbəkistanın paytaxtı Daşkənd şəhərindən Buxara şəhərinə gəliblər.

Buxara Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva qarşılayıblar.

***

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, birinci xanım Ziroatxon Mirziyoyeva və ailə üzvləri Buxara şəhərində İsmayıl Samani türbəsi ilə tanış olublar.

Bu türbə Mərkəzi Asiyanın ən qədim İslam memarlığı abidələrindən biridir. IX əsrin sonu - X əsrin əvvəllərində inşa edilən türbə özünəməxsus memarlıq həlli ilə seçilir. Abidənin əsas tikinti və bədii tərtibat materialı bişmiş kərpicdir. Tədqiqatçılar burada kərpic hörgüsünün 18 müxtəlif növünü müəyyən ediblər. Ənənəvi olaraq hesab edilir ki, burada Samanilər sülaləsinin banisi və ən görkəmli nümayəndələrindən biri İsmayıl Samani, onun atası və nəvəsi dəfn olunub.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, birinci xanım Ziroatxon Mirziyoyeva və ailə üzvləri Buxara şəhərində “Ark” qalası ilə tanış olublar.

“Ark” qalası eramızdan əvvəl IV əsrdə inşa olunub. Onun hazırkı görkəmi isə əsasən XVII-XVIII əsrlərdə formalaşıb. Qaladan XX əsrin əvvəllərində Buxara hökmdarlarının qış iqamətgahı kimi istifadə olunurdu. Hazırda qala 4 hektar ərazini əhatə edir. Qalanın böyük hissəsi 1920-ci ildə dağılıb. 1947-ci ildən qala ərazisində Buxara Dövlət Muzey-Qoruğu fəaliyyət göstərir.

***

Avqustun 24-də Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, birinci xanım Ziroatxon Mirziyoyeva və ailə üzvləri Buxara şəhərində “Poyi-Kalon” kompleksi ilə tanış olublar.

Bu kompleksin adı “Böyüyün ətəyində” mənasını verir. Onun əsas abidələrindən biri olan Kalon minarəsi 1127-ci ildə inşa olunub.

Kalon məscidi Buxaranın ən böyük məscididir. XVI əsrdə inşa olunan məsciddə eyni anda 12 min insanın ibadət etməsi mümkündür.

Kompleksdəki Mir-i Ərəb mədrəsəsi dini təhsil müəssisəsidir. Mədrəsə XVI əsrdə Abdullah Yəməni - Mir-i Ərəb tərəfindən inşa etdirilib.











# Bakı-Daşkənd: Tarixi önəm daşıyan səfər

Son illərdə Azərbaycanın çoxvektorlu xarici siyasət kursunda Mərkəzi Asiya regionunda yerləşən dövlətlərlə əlaqələrin daha da möhkəmləndirilməsi prioritet istiqamətlərdən biri kimi önə çıxıb. Əlamətdar haldır ki, bu istək qarşılıqlıdır. Öz növbəsində Mərkəzi Asiya dövlətləri də ölkəmizlə əlaqələrin intensivləşməsinə böyük maraq göstərirlər. Bunun təsdiqi olaraq 2025-ci ilin noyabr ayında Azərbaycan məhz dost ölkələrin istəyi ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə quruma tam hüquqlu üzv qəbul edilib. Beləliklə, Prezident İlham Əliyevin bildirdiyi kimi, Mərkəzi Asiya Azərbaycanla vahid bir iqtisadi və siyasi məkanda birləşir.

Eyni zamanda, Azərbaycanla Mərkəzi Asiya regionunun ayrı-ayrı ölkələri arasında ikitərəfli münasibətlər dərinləşməkdə davam edir. Bu baxımdan Azərbaycanın Özbəkistanla əlaqələrinin intensivləşməsi xüsusi diqqət çəkir. Qısa müddətdə ölkələrimiz arasında münasibətlər strateji tərəfdaşlıqdan strateji müttəfiqliyə və əbədi dostluğa yüksəlib. Bu gün iki dost və qardaş ölkə qarşılıqlı əlaqələrini həm ikitərəfli, həm də çoxtərəfli platformalarda, o cümlədən də Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təsisatlar çərçivəsində intensiv şəkildə inkişaf etdirir. Şübhə yoxdur ki, Prezident İlham Əliyevin Özbəkistana budəfəki dövlət səfəri iki qardaş ölkə arasındakı münasibətlərə güclü impuls verməklə keyfiyyətcə yeni bir mərhələnin əsasını qoyacaq. Səfər iki ölkə arasındakı müttəfiqlik münasibətlərinin daha da gücləndirilməsi və bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişləndirilməsi baxımından tarixi önəm daşıyır.

## Liderlərin qarşılıqlı səfərlərinin böyük önəmi

Hazırda dünyada dövlətlər arasında yaxınlıq əlaqələrinin qurulmasına və inkişafına liderlərin bir-birilərinə münasibəti güclü şəkildə təsir göstərir. Liderlərin qarşılıqlı hörmət və rəğbəti öz növbəsində cəmiyyətlərə transfer olunur və nəticədə son dərəcə gözəl ab-hava yaranır. Azərbaycanla Özbəkistan arasında münasibətləri də məhz bu kontekstdən dəyərləndirmək mümkündür. Azərbaycan Prezidenti İlham Əliyevlə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev xalqlarımızın çoxəsrlik tarixə söykənən dostluq əlaqələrini irəli aparmağa böyük maraq göstərirlər. Onlar hər görüşdə bir-birilərinə dərin rəğbətlərini ifadə edirlər. Liderlər dəfələrlə məmnunluq hissi ilə bildiriblər ki, onlar Azərbaycanda və yaxud Özbəkistanda olanda özlərini doğma evlərində və ailələrində olduqları kimi hiss edirlər. Azərbaycan və Özbəkistan Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə böyük uğurlara imza atırlar. Bunu dost ölkələrin dinamik inkişafı və beynəlxalq səviyyədə qazandığları böyük nüfuz da əyani şəkildə təsdiqləyir. Liderlər isə hər görüşdə qardaş ölkələrin nailiyyətlərinə xüsusi vurğu etməklə buna sevindiklərini bildirirlər.

Belə xoş məramın göstəricisidir ki, son illərdə prezidentlərin qarşılılı səfərləri daha da intensivləşib. Son 5 ildə Prezident İlham Əliyev Özbəkistana 2 dövlət səfəri və 4 işgüzar səfər edib. Prezident Şavkat Mirziyoyev isə həmin müddətdə ölkəmizə 2 dövlət səfəri və 7 işgüzar səfər həyata keçirib. Bu səfərlər çərçivəsində 2024-cü il avqustun 23-də Daşkənddə "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanması münasibətlərdə keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoyub. Həmin gün Ali Dövlətlərarası Şuranın ilk iclasının keçirilməsi də yeni müttəfiqlik formatının institusional əsaslarını möhkəmləndirib.

Özbəkistan mətbuatında verilən məlumatlara görə, qardaş ölkədə Prezident İlham Əliyevin Özbəkistana budəfəki dövlət səfərinə də böyük hazırlıqlar görülüb. Belə ki, hava limanının ərazisi, Daşkənd küçələri Azərbaycan və Özbəkistanın dövlət bayraqları ilə bəzədilib, insanlar da Azərbaycan Prezidentinin səfərinə qəlbən sevinirlər. Sosial şəbəkələrdə yayılan görüntülərə əsasən paytaxt meydanlarında hündürmərtəbəli binalar Azərbaycanın üçrəngli bayrağı ilə işıqlandırılıb.

Həmçinin Azərbaycan Prezidentinin səfəri münasibətilə genişmiqyaslı dron şousu təşkil edilib. Səma üzündə yüzlərlə dron vasitəsilə prezidentlərin portretləri və iki ölkənin bayraqları nümayiş etdirilib. Səfərin gündəliyi də kifayət qədər geniş əhatə dairəsinə malikdir.

## İqtisadi əlaqələr sənaye kooperasiyası və investisiya əməkdaşlığı istiqamətlərində genişlənir

İki döst ölkənin ali siyasi rəhbərliyinin dostluq münasibətlərindən qaynaqlanan qarşılıqlı iqtisadi əlaqələr də uğurla genişlənir. Bu gün ikitərəfli iqtisadi əlaqələr ticarət münasibətləri ilə yanaşı, sənaye kooperasiyası və investisiya əməkdaşlığı istiqamətlərində də genişlənir. Tərəflər qarşılıqlı ticarət dövriyyəsinin və investisiyaların artırılmasını, birgə layihələrin həyata keçirilməsini prioritet istiqamətlərdən biri kimi müəyyənləşdiriblər. Ötən il iyulun 2-də iki ölkə arasında ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılmasını nəzərdə tutan Proqram qəbul edilib.

İnvestisiya əməkdaşlığının mühüm mexanizmlərindən biri Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətidir. 2023-cü ildə yaradılmış şirkətin nizamnamə kapitalı 500 milyon ABŞ dollarıdır.

Sənaye kooperasiyasının uğurlu nümunələrindən biri avtomobil istehsalı sahəsində əməkdaşlıqdır. Hacıqabul Sənaye Parkında Azərbaycan və Özbəkistan şirkətlərinin əməkdaşlığı çərçivəsində 10 min 720 "Chevrolet" markalı avtomobil istehsal edilib. Bundan əlavə, "Azərmaş Park" MMC ilə Özbəkistanın "SamAvto" şirkətinin əməkdaşlığı çərçivəsində "ISUZU" markalı 275 avtobus istehsal olunub.

**Son 5 ildə Prezident İlham Əliyev Özbəkistana 2 dövlət səfəri və 4 işgüzar səfər edib. Prezident Şavkat Mirziyoyev isə həmin müddətdə ölkəmizə 2 dövlət səfəri və 7 işgüzar səfər həyata keçirib**

## Enerji və nəqliyyat sahələrində güclü əməkdaşlıq potensialı

Azərbaycanla Özbəkistan arasında iqtisadi əməkdaşlığın böyük perspektiv vəd edən istiqamətlərindən biri enerji əməkdaşlığıdır. SOCAR ilə Özbəkistanın "Uzbekneftegaz" şirkəti arasında əməkdaşlığın genişləndirilməsi iki ölkənin enerji şirkətləri arasında tərəfdaşlığın yeni istiqamətlərə çıxarılması baxımından əhəmiyyətlidir. Özbəkistanın "OZLITINEFTGAZ" İnstitutunun və "SOCAR NIPI Nefteqaz"ın bazasında yaradılmış "Neftegaztexnologiya" birgə müəssisəsi 2016-cı ildən neft-qaz sənayesində uğurla fəaliyyət göstərir. Tranzit daşımaların həcmi də kifayət qədər genişlənib. 2025-ci ildə Azərbaycanla Özbəkistan arasında tranzit daşımaların həcmi 1,4 milyon ton olub.

Məlumdur ki, hazırda dünya enerji transformasiyası dönəmindən keçir. İki dost ölkənin gündəliyində də yeni qlobal çağırışlarla bağlı məsələlərə xüsusi yer verilir. Həmçinin iki ölkənin enerji əməkdaşlığı ənənəvi neft-qaz əməkdaşlığından bərpaolunan enerji və regional enerji sistemlərinin əlaqələndirilməsinə doğru inkişaf edir. 2024-cü il noyabrın 13-də COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb. Bu təşəbbüs Mərkəzi Asiyada istehsal edilən bərpaolunan enerjinin Xəzər və Qara dəniz marşrutu ilə Avropa istiqamətində ötürülməsi üçün yeni imkanlar yaradır. Burada söhbət yalnız elektrik enerjisinin ötürülməsindən getmir. Mərkəzi Asiyanın bərpaolunan böyük enerji potensialının Azərbaycan ərazisindən Qərb bazarlarına çıxarılması regionların yaşıl transformasiyasını sürətləndirə, enerji təhlükəsizliyini gücləndirə və yeni geoiqtisadi bağlantılar yarada bilər.

Son illərdə Azərbaycanla Özbəkistan arasında nəqliyyat-logistika sahəsində əməkdaşlığın prioritetliyinin artması da məmnunluq doğurur. Hər iki ölkənin əlverişli corafi yerləşməsi onların tranzit imkanlarını artırır. Bu gün Orta Dəhliz iki ölkənin coğrafi mövqelərini vahid regional üstünlüyə çevirən əsas platformalardan biri qismində çıxış edir. Marşrut Mərkəzi Asiyanın istehsal və ixrac imkanlarını Xəzər vasitəsilə Cənubi Qafqaz, Türkiyə və Avropa bazarları ilə əlaqələndirir.

Azərbaycanın beynəlxalq dəniz limanı, dəmir və avtomobil yolları, hava limanları, gəmiçilik və logistika infrastrukturu ilə Özbəkistanın istehsal və ixrac potensialının birləşdirilməsi marşrutun iqtisadi səmərəliliyini daha da artırır. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun inkişafı da bu istiqamətdə yeni imkanlar yaradır.

Eyni zamanda, 2022-ci ildə imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" Saziş iki ölkə arasında avtomobil daşımalarının inkişafını daha da sürətləndirib.

## Özbəkistan-Azərbaycan Regionlararası Forumu: 400-dək şirkət bir araya gəlib, mühüm sənədlər imzalanıb

Prezident İlham Əliyevin Özbəkistana növbəti dövlət səfəri ərəfəsində Daşkənddə təşkil edilən IV Özbəkistan-Azərbaycan Regionlararası Forumunda ölkələrimiz arasında əlaqələrin genişləndirilməsinə, birgə layihələrin reallaşdırılmasına dair müzakirələr aparılıb, sənədlər mübadilə olunub. Forum Azərbaycanın İqtisadiyyat, Özbəkistanın İnvestisiya, Sənaye və Ticarət nazirliklərinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO və Özbəkistanın Xarici İnvestisiyaların Cəlb Edilməsi Agentliyinin birgə təşkilatçılığı ilə baş tutub.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, tədbirdə hər iki ölkədən dövlət rəsmiləri ilə yanaşı, ağır sənaye, maşınqayırma, metallurgiya və metal emalı, tikinti, tekstil, kənd təsərrüfatı, qida, turizm, təhsil, tibb və əczaçılıq, mühəndislik, konsaltinq, dağ-mədən, kimya, mebel, elektrotexnika, avtomobil sənayesi, dəri məmulatları, plastik emalı və digər sahələrdə fəaliyyət göstərən 400-dək şirkət təmsil olunub.

Forumda çıxış edən Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, Azərbaycan-Özbəkistan münasibətlərinin dövlət başçılarımızın siyasi iradəsi sayəsində intensiv inkişafı iqtisadi əlaqələrimizin daha da şaxələndirilməsinə və biznes tərəfdaşlığımızın gücləndirilməsinə mühüm stimul verir. Nazir strateji tərəfdaşlıq münasibətlərinə malik ölkələrimiz arasında iqtisadi əlaqələrin müsbət dinamikasını vurğulayıb, regional bağlantıların möhkəmləndirilməsi üçün geniş imkanları qeyd edib. Bildirilib ki, əlaqələr yalnız dövlətlərarası səviyyədə deyil, şəhərlər və regionlar arasında da fəal şəkildə inkişaf edir.

Əməkdaşlığın fəal təşviqi, sənaye, investisiya, ticarət, enerji, nəqliyyat-tranzit, rəqəmsallaşma, kənd təsərrüfatı və digər istiqamətlərdə tərəfdaşlığın, biznes dairələri arasında birbaşa əlaqələrin gücləndirilməsi imkanları diqqətə çatdırılıb.

Həmçinin vurğulanıb ki, Orta Dəhliz Azərbaycan və Özbəkistan arasında iqtisadi əməkdaşlığın əsas istiqamətlərindən biridir. Məqsəd dəhlizi sadəcə tranzit marşrutu deyil, əlavə dəyərin yaradıldığı iqtisadi platformaya çevirməkdir. Bunun üçün dəmir yolu və dəniz daşımalarının əlaqələndirilməsi, tariflərin optimallaşdırılması, rəqəmsal məlumat mübadiləsinin genişləndirilməsi istiqamətində əməkdaşlığın dərinləşdirilməsi vacibdir.

Diqqətə çatdırılıb ki, Qarabağ və Şərqi Zəngəzur yeni investisiya imkanları baxımından xüsusi əhəmiyyət daşıyır. Burada dövlət tərəfindən yaradılan infrastruktur və investisiya təşviqləri özəl sektor üçün əlverişli şərait formalaşdırır. Özbəkistanın işğaldan azad edilmiş ərazilərin bərpasına verdiyi dəstək iki ölkə arasındakı qardaşlığın mühüm göstəricisidir.

Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Laziz Kudratov Azərbaycanla Özbəkistan arasında iqtisadi əlaqələrin ardıcıl şəkildə inkişaf etdiyini bildirib. Qarşılıqlı ticarətin və investisiyaların artırılması, regionlar arasında birbaşa biznes əlaqələrinin gücləndirilməsi və birgə layihələrin reallaşdırılması üçün geniş imkanların olduğu vurğulanıb.

AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev və Özbəkistanın Xarici İnvestisiyaların Cəlb Edilməsi Agentliyinin direktor vəzifəsini icra edən Roksana Nesor hər iki ölkənin investisiya və ixrac potensialı, sahibkarlar üçün təqdim olunan dəstək mexanizmləri barədə məlumat veriblər. Şübhə yoxdur ki, forumda mübadilə olunan sənədlər biznes assosiasiyaları arasında əlaqələrin daha da möhkəmləndirilməsini, özəl sektorun potensialının tam reallaşdırılmasını və birgə layihələrin həyata keçirilməsini təmin edəcək.

*Mübariz FEYİZLİ*

# Azərbaycan ilə Özbəkistanın iqtisadi imkanları...



## Yeni əməkdaşlıq formatlarının yaradılması üçün geniş üfüqlər açılır

Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsində Azərbaycanın Özbəkistanla yaxın dostluq münasibətlərinin müasir vəziyyətinə toxunaraq birgə əməkdaşlıq formatının regional inteqrasiyanın dərinləşməsinə əvəzsiz töhfələr verdiyini bildirib. Son illərdə bu sarsılmaz birlik iqtisadi, nəqliyyat, investisiya, enerji, mədəni, humanitar və rəqəmsal transformasiya sahələrində çoxsəviyyəli əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli mərhələni başladıb.

2024-cü ilin avqustunda İlham Əliyevin Özbəkistana, 2025-ci ilin uyul ayında isə Şavkat Mirziyoyevin Azərbaycana səfəri zamanı imzalanan "Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə", "Müttəfiqlik münasibətləri haqqında Müqavilə" və "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi", eləcə də digər mühüm sənədlər tərəflər arasında yeni tərəfdaşlıq imkanlarının reallaşdırılması baxımından əhəmiyyətli təkanverici rola malikdir. Həmçinin, 2023-cü ilin avqustunda təsis edilmiş Ali Dövlətlərarası Şura da münasibətlərimizin inkişaf strategiyasının müəyyənləşdirilməsində xüsusi rol oynayır.

### Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti birgə sərmayələri təşviq edir

Azərbaycan-Özbəkistan münasibətlərinin mühüm istiqamətlərindən biri iqtisadi-ticari əməkdaşlıqdır. Bu sahədə son illərdə sürətli inkişaf dinamikası müşayiət olunmaqdadır. Qarşılıqlı ticarət dövriyyəsi 2025-ci ildə əvvəlki illə müqayisədə üç dəfədən çox artıb və 795 milyon dollar təşkil edib. 2026-cı ilin yanvar-may aylarında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollara çatıb. Tərəflər sənaye, aqrar-sənaye, tikinti, turizm, rabitə və digər sahələrdə iqtisadi mübadilənin həcmini real potensialın səviyyəsinə çatdırmağı hədəfləyir ki, buna hər iki tərəfin gücü və iradəsi də imkan verir.

Həmçinin qarşılıqlı investisiya qoyuluşları artır. 2023-cü ildə yaradılmış ümumi kapitalı 500 milyon dollar olan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti praktiki olaraq sərmayə layihələrinin icrasını təmin edir. İnvestisiya Şirkəti ölkələrimiz arasında investisiya əməkdaşlığının inkişafı üçün mühüm platformaya çevrilib və həm Azərbaycanda, həm də Özbəkistanda iqtisadiyyatın müxtəlif sektorlarında perspektivli layihələrin maliyyələşdirilməsinə və həyata keçirilməsinə əhəmiyyətli töhfə verir. Bu dinamika birgə investisiya təşəbbüskarlığını daha da artırır. Yeri gəlmişkən, yeni sərmayə layihələri arasında "PASHA Holding" tərəfindən "The Ritz-Carlton" brendi altında Daşkənddə inşa edilən hotel və yaşayış kompleksini, həmçinin Daşkənd vilayətində "Sea Breeze Uzbekistan" böyük turizm və yaşayış kompleksini qeyd etmək olar.

### Orta Dəhlizin TRIPP-ə inteqrasiyası

Azərbaycanda təxminən 130-dan çox Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib və iqtisadiyyatın müxtəlif istiqamətlərində fəaliyyət göstərir.

İqtisadi-investisiya siyasətinə töhfə verən amillərdən biri iki dövlət arasında əməkdaşlığa dair Hökumətlərarası Komissiyanın aktiv fəaliyyəti, eləcə də Azərbaycan-Özbəkistan Regional Forumunun təşəbbüskarlığıdır. İndiyə qədər Komissiyanın 15 iclası keçirilib, bu yaxınlarda Daşkənddə keçirilən son iclasda Azərbaycan-Özbəkistan iqtisadi-ticari əməkdaşlığının mövcud vəziyyəti, qazanılan nailiyyətlər və inkişafın gələcək istiqamətləri ətraflı müzakirə olunub.

Ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərindən biri şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsidir. Hər iki dövlət Beynəlxalq Nəqliyyat Dəhlizinin (Orta Dəhliz) aparıcı oyunçularıdır. Orta Dəhliz vasitəsilə ixrac imkanlarının artması sayəsində 2024-cü ildə ölkələrimiz arasında tranzit daşımaların həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu keçib, 2025-ci ildə isə daşımaların həcmi 6,7 faiz artıb və 1,4 milyon tona çatıb. Bu ilin yanvar-iyun aylarında da 12,2 faizlik artım qeydə alınıb və həmin göstərici 675 min ton təşkil edib. Orta Dəhlizin əsas qovşaqlarından biri olacaq Zəngəzur dəhlizinin açılması isə Mərkəzi Asiya ölkələrinin, o cümlədən Özbəkistanın regional tranzit bağlantılarında fəal yerini möhkəmləndirəcək.

### "Yaşıl Dəhliz Birliyi" - enerjinin yeni gündəliyi

Energetika sektorunda əməkdaşlıq və "yaşıl enerji"nin inkişafı da prioritet istiqamət olaraq qalır. SOCAR Özbəkistana Azərbaycanın neft məhsullarını və neft-kimya məhsullarını ixrac edir. İki ölkənin səyi ilə yaradılan "Neftegaztexnologiya" birgə müəssisəsi uğurla fəaliyyət göstərir. Bundan əlavə, 2024-cü ildə yaradılan SOCAR və "Özbəkneftegaz" SC arasında birgə müəssisə olan "Turan Energy AFEZCO" "Azərikimya" İstehsalat Birliyi tərəfindən istehsal olunan yüksəktəzyiqli polietilenin Özbəkistana ixracını həyata keçirir.

2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin inteqrasiyasına və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sazişlər, memorandumlar imzalayıblar ki, bu da regionun davamlı inkişafı və enerji əməkdaşlığını gücləndirmək üçün yeni perspektivlər açır. 2025-ci ildə isə Azərbaycan, Qazaxıstan və Özbəkistanın müvafiq energetika idarələri tərəfindən Bakıda "Yaşıl Dəhliz Birliyi" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis olunub. Bu birgə müəssisə Azərbaycan-Mərkəzi Asiya yaşıl enerji dəhlizi layihəsinin həyata keçirilməsini, bərpaolunan enerji ixracını və onun Xəzər dənizinin dibi ilə nəqli imkanlarını əlaqələndirmək məqsədilə yaradılıb. Sənədə əsasən, enerji səmərəliliyinin artırılması, "yaşıl" iqtisadiyyatın artımını stimullaşdıran inteqrasiya olunmuş regional şəbəkənin yaradılması nəzərdə tutulur ki, bu da gələcəkdə Orta Asiya-Xəzər-Avropa "yaşıl dəhliz"inin yaradılmasına səbəb olacaq. Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə proqnozları kifayət qədər ümidvericidir. Xəzərdə və azad edilmiş ərazilərdə böyük potensiallar var. Təkcə Xəzər dənizində külək sayəsində enerji istehsalı üçün təxminən 157 QVt güc vardır. Özbəkistanın da geniş çöllərində günəş enerjisi üçün resurslar xeyli böyükdür. Azərbaycan bərpa olunan enerji mənbələrinin enerji balansındakı payını 2026-cı ilədək 24 faizə, 2028-ci ilə qədər isə 30 faizə çatdırmağı planlaşdırır.

### Sənaye sahəsində birgə istehsal zonası

Sənaye, o cümlədən, maşınqayırma sektorunda son illərdə möhkəm əməkdaşlıq blokları qurulub. Belə ki, "Chevrolet" və "Isuzu" markalı avtomobillərin istehsalı sahəsində əməkdaşlığı bu istiqamətdə xüsusi qeyd etmək olar. Arayış üçün deyə bilərəm ki, 2026-cı il iyulun 13-nə olan məlumata görə, ümumilikdə "Chevrolet" markalı 10 min 720 avtomobil və "Isuzu" markalı 275 avtobus istehsal edilib.

Bir sözlə, Azərbaycan və Özbəkistan iqtisadi platformada ortaq maraqlara xidmət edən təşəbbüslər və əməkdaşlıq formatını da əsas gündəliyə çevirib və regionda yeni yaradılan enerji-kommunikasiya, nəqliyyat xətlərində birgə təmsil olunmaq iradələrini nümayiş etdirməkdədir. Hər iki ölkənin iqtisadi imkanları bir-birini tamamlayır və yeni əməkdaşlıq formatlarının yaradılması üçün geniş üfüqlər açır. Azərbaycan Prezidrntinin avqustun 23-də gerçəkləşən səfəri Azərbaycan şirkətlərinin Özbəkistanda və özbək şirkətlərinin Azərbaycanda daha fəal iştirakını, həmçinin birgə istehsal və investisiya layihələrinin sayının artmasına güclü təkan verəcək.

***E.CƏFƏRLİ***

# Bir xəritə, iki ad, üç mesaj...

## Bağdad Tehranla "məsafəni" ölçür

Yaxın Şərqdə gedən proseslərdə əsəblər tarıma çəkilib. Müharibə artıq hərbi eskalasiyadan diplomatik və informativ mərhələ keçid edib - burada isə çox maraqlı məqamlar nəzərə çarpmaqdadır. Məsələn, İran və İraq parlamentlərinin sədrləri Məhəmmədbağır Qalibaf və Heybət əl-Hələbusi arasında Bağdaddakı görüşdən sonra sosial mediada "kartoqrafik mübahisə" yaranıb. Əl-Hələbusi "X" hesabında arxa planda su hövzəsinin "Ərəb körfəzi" kimi qeyd edildiyi xəritə qarşısında çəkilmiş görüntüsünü paylaşıb. Bu paylaşım sosial media istifadəçiləri və regional müşahidəçilər tərəfindən Qalibafın daha əvvəl paylaşdığı görüntüyə cavab kimi dəyərləndirilib. Qalibaf həmin fotosunda arxa planda "Fars körfəzi" ifadəsi ilə qeyd olunmuş xəritənin qarşısında əyləşmişdi. Tərəflərin bu paylaşımı su hövzəsinin adlandırılması ilə bağlı İran və ərəb ölkələri arasında uzun müddətdir davam edən siyasi və simvolik mübahisəni yenidən gündəmə gətirib. Sosial media polemikası Qalibaf və əl-Hələbusinin Bağdadda görüşərək ikitərəfli əməkdaşlıq və regional prosesləri müzakirə etməsindən 24 saat keçməmiş baş verib.

### Fars körfəzi, yoxsa Ərəb körfəzi - güc və ierarxiya meydanı

Qeyd edək ki, adıçəkilən körfəz Hind okeanının şimal-qərb hissəsində yerləşən, İran sahilləri ilə Ərəbistan yarımadası arasında uzanan strateji su hövzəsidir. Şimal-qərbdə Şəttül-Ərəb çay sistemi ilə İraq ərazisinə, cənub-şərqdə isə Hörmüz boğazı vasitəsilə Oman körfəzinə və Hind okeanına açılır. Körfəzin uzunluğu təxminən 990 kilometr, sahəsi isə 240 min kvadratkilometrə yaxındır. Onun sahillərində İranla yanaşı İraq, Küveyt, Səudiyyə Ərəbistanı, Bəhreyn, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Oman yerləşir. Bu coğrafiya körfəzi yalnız su hövzəsi deyil, enerji və təhlükəsizlik baxımından qlobal əhəmiyyət daşıyan məkana çevirir.

Bu gün körfəz ətrafında müşahidə edilən gərginliklər və qaşıdurmalar isə tarixdən süzülüb gəlir - Körfəzin adlandırılması məsələsi də bura daxildir. Hətta bəzi mənbələrə görə, yüzillər öncə İran və ərəb dünyası arasında gedən siyasi polemikalar, hərbi demarşlar indikindən daha mürəkkəb idi.

Tarixə nəzər yetirsək, körfəzlə bağlı antik yunan mənbələrində "Persikos Kolpos", latın mənbələrində isə "Sinus Persicus" və "Mare Persicum" kimi ifadələrə rast gəlinir. Strabon, Arrian və Plini kimi müəlliflərin əsərlərində bu adlandırmanın müxtəlif formaları yer almaqdadır. Orta əsrlərin ərəb coğrafiyaşünasları isə əsasən "Bəhr Fars", "Xəlic Fars" - yəni Fars dənizi və Fars körfəzi ifadələrindən istifadə ediblər.

Bununla belə, tarix boyu alternativ adlar da mövcud olub. XVI-XVII əsrlərin bəzi Avropa xəritələrində su hövzəsi ilə bağlı Bəsrə körfəzi, Qətif dənizi, Musəndəm dənizi kimi regional coğrafi adlara da rast gəlinir. Məsələn, 1541-ci ildə Merkator körfəzi "Fars körfəzi, indi Bəsrə dənizi" kimi göstərilmişdi. ABŞ Konqres Kitabxanasında qorunan 1775-ci il fransız xəritəsində də "Golfe Persique" ifadəsi işlədilir.

"Ərəb körfəzi" adı isə əsasən XX əsrin ortalarından, ərəb dövlətlərinin yüksəlişi ilə siyasi leksikona daha geniş formatda daxil olub. Hətta bir sıra sənədlərdə belə ərəb dövlətləri su hövzəsini məhz bu formada qeyd edirlər. Bir çox siyasi analitiklər isə adın yeni olmasına baxmayaraq daha ədalətli sayır - səbəb kimi isə, körfəz ətrafında cəmisi 1 fars dövlətinin yerləşməsini əsas gətirirlər. Ad məsələsi əvvəlki dövrlərdə problem yaratmasa da, körfəzin strateji əhəmiyyəti artdıqca bu mübahisə də genişlənməyə başladı. Başqa sözlə, bugünki "dava" yalnız toponim mübahisəsi deyil. Bu, İranın tarixi-sivilizasion identikliyi ilə ərəb dünyasının regional kimliyinin kəsişdiyi geosiyasi xəttin toqquşmasıdır.

### Niyə indi, niyə İraq? - Bağdadın üstüörtülü mesajı

Ortaya bir maraqlı sual da çıxır - niyə məhz İraq dövləti körfəzlə bağlı belə bir ad işlətdi. Siyasi anilitiklərin fikrincə, İraq parlament sədrinin "Ərəb körfəzi" ifadəsini nümayiş etdirən paylaşımının ən diqqətçəkən tərəfi onun vaxtıdır. Çünki bu jest İran parlamentinin sədri Məhəmmədbağır Qalibafın Bağdada səfəri və iki ölkə arasında mühüm siyasi-iqtisadi məsələlərin müzakirəsindən dərhal sonra baş verdi. Daha maraqlısı budur ki, görüşün əsas mövzularından biri İraqın neft ixracının Hörmüz boğazından keçirilməsi məsələsi olub. İraq Tehrandan öz neft tankerlərinə xüsusi rejim tətbiq edilməsini istəyib. İranın isə bu məsələdə kiməsə güzəşt etmək fikri deyəsən yoxdur.

Beləliklə, siyasətçilər baş verənləri üç ehtimal üzərindən təhlil etməyə çalışırlar:

- Birinci ehtimal İraqın öz milli mövqeyini nümayiş etdirməsidir. Politoloqların bir qismi hesab edir ki, əl-Hələbusi bununla Tehrana "əməkdaşlıq edirik, amma siyasi identikliyimizi qoruyuruq" mesajı verib. Yəni Bağdad İranla münasibətləri inkişaf etdirmək istəyir, lakin özünü İranın siyasi orbitində tam şəkildə təqdim etmək niyyətində deyil - Müqtəda-əs Sədrdən sonra İraq tərəfi "şiə hilalında" olmadığını tam gücü ilə sübut etməyə çalışır.

- İkinci ehtimal isə ərəb dünyasına mesajdır. İraqın siyasi sistemi daxilində sünni siyasi qüvvələrin ciddi payı var. Almaniyanın SWP analitikləri də yeni parlamentdə bu qüvvələri birlik kimi təqdim edirlər. Bu baxımdan əl-Hələbusi ərəb dünyasına "İraq ərəb siyasi məkanının bir hissəsidir" mesajını vermək istəmiş ola bilər - yenə də, Müqtəda -əs Sədrdən sonra İraq ərəb dünyası ilə yaxınlaşmaq üçün yeni bir fürsət qazanıb

- Üçüncü ehtimal daxili siyasi arenaya hesablana bilər. İraq uzun müddətdir İranın güclü siyasi təsiri ilə ABŞ və digər regional aktorların təzyiqi arasında balans yaratmağa çalışır. Britaniya parlamentinin araşdırma xidməti də 2026-cı ildə Bağdadın əsas problemlərindən birinin İran təsirinin məhdudlaşdırılması və ABŞ-İran qarşıdurmasının İraq iqtisadiyyatına təsirləri olduğunu vurğulayır. Bu baxımdan "Ərəb körfəzi" ifadəsi İranla münasibətləri pozmaq cəhdi yox, Bağdadın manevr imkanlarını nümayiş etdirməsi kimi də qiymətləndirilə bilər. siyasətçilərin qənaəçtinə görə, indiki halda, İraqın neft gəlirlərinin böyük ölçüdə dəniz marşrutlarından asılı olduğu hazırkı böhran şəraitində Bağdad həm Tehranla yumşaq danışmalı, həm də ərəb qonşularına siyasi yaxınlığını göstərməlidir.







### Müharibə, yoxsa yol istəyi?

ABŞ-ın İrana qarşı mövqeyinin sərtləşdiyi bir dövrdə İraq siyasi rəhbərliyinin belə bir addımı siyasi kluarlarda "quru əməliyyatı" versiyasını da gündəmə gətirib. Amma Qərb mediası bunu təkzib edir - bildirilir ki, "Ərəb körfəzi" paylaşımının İrana qarşı hərbi əməliyyat hazırlığının göstəricisi kimi qiymətləndirilməsi üçün hazırda heç bir ciddi əsas yoxdur. Əksinə, son görüşün gündəliyi belə bir ssenari ilə ziddiyyət təşkil edir. Əl-Hələbusi Qalibafla görüşdə İraqın neft ixracının Hörmüz boğazından təhlükəsiz keçirilməsi üçün Tehrandan xüsusi münasibət istəyib və iki ölkə arasında parlament diplomatiyasının gücləndirilməsini təklif edib.

Politoloqların bəzilərinə görə, bu addım hərbi deyil, geosiyasi sığortalanma cəhdidir. Bağdad İranla əlaqələrini saxlayaraq eyni zamanda ərəb dövlətləri və ABŞ-la münasibətlərində özünə manevr sahəsi yaradır. İraqın hazırkı vəziyyəti bunu zəruri edir: ölkənin iqtisadiyyatı neftdən ciddi şəkildə asılıdır və Hörmüz böhranı ixrac imkanlarını birbaşa məhdudlaşdırır.

Digər bir qisminin fikrincə isə əl-Hələbusi İraqın gələcəkdə İranın regional təsirindən daha müstəqil siyasət yürütməsinə zəmin hazırlayır. Bu, xüsusilə ABŞ-İran qarşıdurmasının fonunda əhəmiyyətlidir. Critical Threats layihəsinin son təhlilinə görə, Bağdad artıq Hörmüzdən asılılığı azaltmaq üçün Aralıq dənizi və Qırmızı dənizə alternativ neft marşrutlarını da nəzərdən keçirir.

Beləliklə bu kiçik qığılcımın regiona hansı "işığı" gətirəcəyini indidən proqnozlaşdırmaq çətindir...

***P.İSMAYILOV***

# Şah İsmayıl Xətai: imtina etmək, yoxsa tarixin gizlin və gerçəklərinə baxmaq



*Azər TURAN*

**Nihal Atsıza görə Osmanlı-Səfəvi müharibəsi bir iç savaşıdır...**

1966-cı ildə yazdığı bir məqaləsində Nihal Atsız “Osmanlı-Səfəvi savaşı bir iç savaşıdır” deyir və əlavə edirdi ki, “Türklərin bəzilərini milli düşmən deyə göstərmək həm tarixi dəyişdirmək, həm də sabahkı türk birliyini indidən baltalamaq olur. Bu baltalama tarixi düşmənlərimizin çörəyinə yağ sürtməkdir”.

Bu sözlərin deyildiyi vaxtdan altmış il keçib. Nihal Atsız “sabahkı türk birliyi”ndən danışırdı. İndi isə Türk birliyinin ərəfəsindəyik. Mehmet Akif demişkən, “Tarix yola düşərkən, yol üstündə yatılmaz”. Orta əsrlərdə bu coğrafiyada milli qovğa yoxdur. Məzhəb qovğası var. Bəzən heç məzhəb qovğası da yoxdur. Hakimiyyət iddiaları var.

Hətta Şah İsmayıl ona pənah gətirmiş Muradın oğlu Əhmədi əmisi Səlimin qəzəbindən qorumuşdu. Çaldıran ərəfəsində isə Səlimin qardaşı şahzadə Əhməd də, Əhmədin oğlu Murad da Anadoludakı ələvi qiyamlarının önündə gedirdilər. Yəni II Bəyazidin oğlu da, nəvəsi də qızılbaş hərəkatının içindəydilər. Bəzən hətta önündəydilər... Xətai şeyx idi. Anadolunun içərilərində də onun şeyxliyinə, təriqətinə bağlı insanlar yetişirdi. Bütün hallarda Xətainin təlqinləri var, torpaq iddiası yoxdur. Bu təlqinlər də Səlimin atası Sultan II Bəyazid tərəfindən hirslə qarşılanmır, əksinə, vaxtilə osmanlı taxtında oturmaq xatirinə qardaşı Cem Sultanın başına müsibətlər gətirən II Bəyazid də Xətaiyə “böyük padişah, Türk və Dəyləm diyarlarının, əcəm məmləkətlərinin əzəmətli hökmdarı, dövrümüzün Cəmşidi, böyük Allahın yardım etdiyi Şah İsmayılın Allah dövlətinin əsaslarını gücləndirsin” deyə məktublar yazır, Ərdəbil təkkəsinə yardımlarda bulunmaqdan geri qalmır. Çünki sultanın özünü də bəzən sufi sultan adlandırırdılar.

**Səlim və Xətainin ixtilafına Əli bəy Hüseynzadənin baxışı**

Orta əsrlər nöqteyi-nəzərindən bu məqamda Xətai, əgər deyildiyi kimi, suçludursa, Səlim də o qədər suçludur. Bir az geniş aspektdə götürəndə, bunların iddialarının timsalında türk aləmi deyil, islam aləmi bölünüb, İslam təqsim olunub. Bunu da ilk dəfə 1908-ci ildə Əli bəy Hüseynzadə yazdı: Sultan Səlimlə Şah İsmayıla qədər islam ölkələrində inzibati idarətmə (hökuməti-cismaniyyə) bölünmüşdü. Amma bunlar İslamı mənəvi baxımdan, yəni ruhən böldü. “Çünki Sultan Səlim ilə Şah İsmayıla qədər nə səltənətlər məzhəb davasında və nə də məzhəblər böylə əsaslı surətdə səltənət davasında olmamışlardır”.

*(Burda bir məsələni də yada salmağa ehtiyac var. Hüseynzadənin 2500 illik türk tarixindən bəhs edən “Siyasəti-fürusət” əsərinin “Teymurnamə” fəsli “Səfəvilər” fəsli ilə davam edir.)*

**Türk ülküçülərinin məsələyə baxışı**

Ülküçü türk şairi olan Niyazi Yıldırım Gencosmanoğlu: “Ta ezelden hür milletiz, / Soyu-sopu gür milletiz, / Kandan, candan bir milletiz, / Bir temel, bir duvar, bir taş / Alevi, Sünni, Kızılbaş!” deyə yaza bilirsə, deməli, tarixin o səhifəsi çoxdan qapanmışdır.

**Səlim dövrü tarixçilərinin rəyinə əsasən Xətaiyə qiymət vermək**

Təəssüf ki, son günlər Xətai mövzusunda diskussiyada iştirak edənlərin çox azı istisna, əksəriyyəti orta əsrlərə məxsus osmanlı tarixlərinə istinad edir. Amma orta əsr saray tarixçilərinin yazdıqlarında təhriflər, mübaliğələndirmələr olmayıbmı? Onlardakı düşmən intonasiyadan sərf nəzər edilməsə, əks təqdirdə, babalarımızın simasında ortaya nəinki faşist, hətta adamyeyən vampir bir zümrənin çıxması ehtimalı da çox yüksəkdir. Məsələn, Hoca Sadəddinin, yaxud Solakzadənin kitablarında yazılanlar kimi: “Şah İsmayıl, Alaüddövlənin paytaxtını yaxıb yıxdı; əcdadının məzarlarını açıb sümüklərini atəşə verdi. Nəql edirlər ki, Alaüddövlənin oğlunu və qızını kabab etdirmiş və İranilər bir-birinin əllərindən qapıb yemişlər”.

Mən bu sitatı Hammerin “Böyük Osmanlı tarixi” kitabından gətirdim. Amma diqqət yetirilməli bir nöqtəni də gözardı etməyək. Osmanlı müəllifləri “gördüm” demir, “nəql edirlər” deyir... Amma fakt Hammerin kitabına tarixi gerçək kimi düşür. Sadəddin, yaxud Solakzadə hər deyiləni yazıya almasaydı, şübhəsiz ki, onların İranilər adlandırdığını Hammer İran mərdumxorları (adamyeyənləri) deyə mübaliğələndirməyəcəkdi.

**Franz Babingerin “Osmanlı Tarih Yazarları” kitabı və bir kürd diplomatı İdris Bitlisi**

Franz Babingerin “Osmanlı Tarih Yazarları” əsərindəki xronoloji ardıcıllığa diqqət yetirsək, belə bir qənaətə gəlmək olur ki, Sultan Səlimlə bağlı ilk əsəri İdris Bitlisi yazıb. İdris Bitlisi Osmanlı tarixindən bəhs edən farsca “Həşt Behişt”, “Səlimnamə” əsərlərinin müəllifidir. Franz Babinger qeyd edir ki, Bitlisi əvvəl Ağqoyunluların sarayında sultan Yaqubun katibi olub, Şah İsmayıl səltənətini qurduğu ilk günlərdə II Bəyazidin yanına qaçıb, onun himayəsinə sığınıb, Çaldıran savaşında Səlimi müşayiət edib və Çaldırandan sonra Sultan onu Kürdüstan hakimi təyin edib. Babingerin bildirdiyinə görə, Bitlisi “Bir kürd ordusunun başında... Mardini fəth edib” və s. Şah İsmayılla Sultan Səlim arasındakı savaşın ilk tarixçiliyini edən İdris Bitlisidir. Sultan Səlim dövrü barədə yazılanların əksəriyyəti İdris Bitlisidən sonra qələmə alınıb. Təkcə osmanlı qaynaqları deyil, Şahin Fazilin “Azərbaycan XV-XVI əsrlərdə” (1983) kitabında da yazdığı kimi, azərbaycanlı Həsən bəy Rumlunun “Əhsənüt təvarix” əsəri üçün də qaynaqlardan biri İdris Bitlisinin “Həşt behişt” əsəri olmuşdur.

**Xətainin məzhəb faşizmi, yoxsa Osmanlı müftisinin fitvası?**

Xətaini məzhəb faşizmində suçlayanlara professor İsmayıl Hakkı Uzunçarşılının “Büyük Osmanlı Tarixi” kitabında Xoca Sadəddinin “Tacüt Təvarih” əsərində verilmiş belə bir məlumatı xatırladıram: “Padişah Anadoluda aram edən Qızılbaşları təftiş üçün hükkami-məmalikə hökmlər göndərib, yeddi yaşından yetmiş yaşına varınca Qızılbaş olduğu sabit olanların isimlərini dəftərə qeyd ilə kəndisinə göndərilməsini əmr etmişdi. Padişahın əmri üzərinə təhqiq və təftiş nəticəsində qırx min adam tevkif olunaraq kimi qətl edilmiş və kimisi həbs olunmuşdur”.

Səfəvi təriqətinin saliklərinə ilk öncə Səlim tərəfindən belə amansız divan tutulub.

Bu, Xətainin silahsız-filansız ruhi təlqinlərlə Anadoluya sirayət etdiyi illərin birində və Sultan Səlimin hakimiyyətinin ilk ilində baş verənlərdir. İsmayıl savaş açmır, torpaq istəmir. Səlim isə onu ortadan qaldırmaq üçün bütün tədbirləri görür. Tekindağ “Yeni qaynaq və vəsiqələrin işığı altında Yavuz Sultan Səlimin İran səfəri” məqaləsində belə faktların bir neçəsini təqdim edib: Osmanlı müftisi Müfti Həmzə fitva verir ki, “Ey müsəlmanlar! Biliniz ki, rəisləri Ərdəbil oğlu İsmayıl olan qızılbaş taifəsi, Peyğəmbər Əfəndimizin şəriətini, İslam dinini və Qurani-Mübini xor görməkdədir. Cənab Allahın haram qıldığı xüsuslara halal deyən, Qurani-kərimi atəşə atan, məscidləri, camiləri yıxan, şahlarını büt yapıb səcdəyə gələn... bu qızılbaş taifəsinə qarşı hərb elan edilməsinə fitva verdik... Qızılbaşlarla işbirliyi yapan, onların etdiyini edən də kafirdir. Öldürülən qızılbaşlar cəhənnəmlikdir. Onların nikahları batildir” və s. Göründüyü kimi, müfti Həmzə Xətaiyə münasibətdə rəngləri çox tündləşdirir. Kərbəlada İmam Hüseyn türbəsini, Nəcəfdə Hz. Əli məscidini və b. ziyarətgah və məbədləri azərbaycanlı memarlar Xətainin dövründə, təbii ki, onun istəyi ilə inşa etmişdilər. Amma fitvada o, osmanlı cameəsinə, az qala, dövrün dəccalı kimi təqdim edilirdi.

Osmanlının möhtərəmlərindən olan Kamal Paşazadə bu fitvanı əsaslandıran digər fitva verib. Bu fitvaya görə də qızılbaşların öldürülməsi caiz, malları halal, nikahları batil hesab olunurdu və s.

Vaxtilə Valther Hinz qızılbaşlarla nasistləri müqayisə edir, qızılbaşların “Bismi-Şah”ını nasistlərin “Heil Hitler”i ilə qiyaslandırırdı. Müqayisə tamamilə yanlış idi. Tutaq ki, Şah İsmayıl Bağdadı savaşsız almışdı. Əgər Şah İsmayılın qızılbaşları Bağdada faşist kimi girirdilərsə, şəhər nə üçün savaşsız təslim olurdu? Tahsin Yazıçının “Şah İsmayıl” məqaləsində bu məsələyə aydınlıq gətirilmişdir: “Bağdad valisi, içində çox sayda şiə bulunan şəhəri müqavimət göstərmədən Şaha təslim etdi”.

**Xətainin özünü Allah, ya da peyğəmbər məqamında gördüyünü kim deyir?**

Prosesin axarında anonim tarixlər dövriyyəyə daxil oldu. Yunan dilində yazılmış və osmanlının 1373-1512-ci illərini əhatə edən anonim Osmanlı tarixinin müəllifi yazırdı ki, “İranda qızılbaş İsmayıl ayaqlandı... Ordu topladı. Bir çoxları ona inandılar. Onu peyğəmbər yapdılar. Bu həvalinin sarasinləri öz ölkələrindən peyğəmbər çıxmasından dolayı böyük sevinc duydular. Peyğəmbər olaraq gəldiyinə dair ağlına gələnləri söylədi”. Yəni XVI əsrin yunanca yazılmış tarix kitabı Xətai barədə bu qədər föhş və böhtan uydurmuşdu.

Belə yanaşmalar təəssüf ki, 2000-ci ildən sonra Azərbaycanda da müşahidə olunub. 2003-cü ildə Bakıda çap olunmuş bir kitabın ilk yazısı “Atəşlə xaçın izdivacından yaranmış bic” adlanırdı və həmin yazı Şah İsmayıl Xətaini hədəfə almışdı. Xətainin anasını xristian missioneri adlandıran müəllif, diqqəti Xətaini himayə edən erməni kilsəsinə yönəldir və “Yer yox ikən, göy yox ikən ta əzəldən var idim” misrasının da yer aldığı qəzəlini xristianlıqdakı üç üqnumdan, yəni “Ata Allah, Oğul Allah və Müqəddəs Ruh görüşündən daha da kafircəsinə iddia” adlandırırdı. (O vaxt cavab olaraq “Yol daşını yol quşuna atma, qardaş, kərəm eylə” adlı məqalə yazıb 2 iyul 2004-cü il tarixli “Ədəbiyyat qəzeti”ndə dərc etdirmişdim).

Böyük alman alimi Karl Brokkelman “İslam ulusları və dövlətləri tarixi” əsərində bildirir ki, Şah İsmayıl Mesopotamiyanı və İraqı fəth edəndən sonra, yəni Nəcəfə və Kərbəlaya sahib çıxandan sonra Hüveyzada Əlini Allah olaraq tanıyan, rəhbərlərinə Allah olaraq tapınan müfrid bir şiə təriqəti vardı ki, Xətai bu təriqətin mənsubları ilə çox sərt davranmışdı. Bilmirəm, bunu Brokkelmandan başqası da yazıbmı?

Xətai müridlərini bəzən əliilahilikdə suçlayırlar. Dində fəsad törətməsinin bir səbəbi kimi də, yuxarıda da göründüyü kimi, bunu deyirlər. Amma həmin misralar yalnız kontekstdən çıxarılanda deyilən təsəvvürü verir. Qəzəlin son beyti isə belədir: “Mən Xətaiyəm, həqqi həqq tanımışam bigüman, / Onun üçün ol yaratdı, mən ona dərkar idim”. Bu, təkcə Xətaidə deyil, Xətaiyə qədərki bütün sufi mətnlərində keçən doktrindir. “Allah özünü bəyan etmək istədi və insanı yaratdı”. Xalq yazıçısı Anar 1985-ci ildə yazdığı “Şairin zəfəri” adlı essesində Xətainin bu misralarında Nəsiminin panteist, vəhdəti-vücud görüşləri ilə səsləşmələr görürdü.

Nihal Atsız deyirdi ki, “Bir az eşələsəniz... yunan fəlsəfəsindən, buddizmdən və sairədən gələn ünsürlərlə Tanrılıq iddiasına qədər qalxan mütəsəvvüflər məlumdur. Mənsur bu çılğınların ən tanınmışıdır...”

Xətai də daxil olmaqla, İslam aləminin hansı şairi üçün Mənsur örnək deyil?

Digər tərəfdən, osmanlı qaynaqlarında göstərilir ki, Şah İsmayıl Bağdada daxil olanda güya Mənsur Həllacın məzarını dağıdıb. Şah İsmayıl Mənsurun məzarını necə dağıda bilərdi ki, özü:

Çün təcəlli nurını görmək təmənna eylərəm,

Şimdi Mənsurəm, məni bir darə göndərmək gərək,

- deyirdi. Belə bir Şah İsmayıl Bağdada girəndə necə ola bilərdi ki, Mənsur Həllacın məzarı dağıdılaydı?!

**davamı növbəti sayımızda**

# İturupdan Köniqsberqə qədər çəkilən xəritə

Rusiya Prezidenti Vladimir Putinin 13 avqust 2026-cı ildə Yaponiya ilə mübahisəli Kuril adalarından biri olan İturupa ilk səfəri adi protokol hadisəsi kimi qiymətləndirilə bilməz. Səfər Yaponiyanın kəskin etirazına səbəb olub və Moskva adalar üzərində suverenliyini yenidən bəyan edib. Rusiya həmin əraziləri İkinci Dünya müharibəsindən sonra əldə etdiyini bildirir, Yaponiya isə İturup da daxil olmaqla cənub Kuril adalarını özünün “şimal əraziləri” hesab edir. Bu mübahisə səksən ildən artıqdır Rusiya-Yaponiya münasibətlərinin ən həssas məsələlərindən biri olaraq qalır və iki ölkə arasında formal sülh müqaviləsinin bağlanmamasının əsas səbəblərindən biridir.



Lakin İturupdan baxanda xəritə yalnız Sakit okeanda bitmir. Xəritəni Avropaya doğru uzatdıqda onun digər ucunda Köniqsberq - indiki Kaliningrad görünür. İkinci Dünya müharibəsindən sonra Sovet İttifaqının tərkibinə keçmiş, bu gün isə Rusiyanın əsas ərazisindən ayrı, Polşa və Litva arasında yerləşən Kaliningrad Avropanın təhlükəsizlik arxitekturasında xüsusi mövqeyə malikdir. İturup Rusiyanın Sakit okeandakı strateji mövcudluğunun simvoludursa, Kaliningrad Rusiyanın Avropanın şərq cinahındakı ən mühüm hərbi-strateji dayaqlarından biridir. Bu iki nöqtəni bir xətt üzərində birləşdirəndə ortaya sadəcə coğrafi xəritə çıxmır. Qərbin resurslarını mümkün qədər geniş təhlükəsizlik perimetri boyunca səpələmək məntiqi görünür. Məsələ bundan ibarətdir ki, rəqibi məğlub etmək üçün həmişə onun əsas qüvvəsinə birbaşa zərbə vurmaq lazım deyil, bəzən onu müxtəlif istiqamətlərdə təhlükə gözləməyə məcbur etmək də yetər. Baltikyanı ölkələr, Kaliningrad, Polşa-Litva sərhədi, Arktika, Qara dəniz və Sakit okean eyni vaxtda təhlükəsizlik gündəliyinə daxil olanda NATO və Avropa dövlətləri öz hərbi, maliyyə və logistika resurslarını bir nöqtədə cəmləşdirə bilmir. Beləliklə, rəqibin gücünü məhv etmədən onun gücünün konsentrasiyasını pozmaq mümkün olur. Bu, klassik sovet əməliyyat düşüncəsində yaxşı tanınan prinsipin müasir geosiyasi şəraitdə başqa vasitələrlə görünən formasını xatırladır. Sovet hərbi planlaşdırmasında düşmənin ehtiyatlarını vaxtından əvvəl hərəkətə gətirmək, əsas zərbənin istiqamətini gizlətmək, müdafiə qüvvələrini müxtəlif sahələrə bölmək və əməliyyat dərinliyində onun idarəetmə imkanlarını zəiflətmək mühüm yer tuturdu. Bu gün həmin məntiqi eyni hərbi doktrina kimi təqdim etmək olmaz, lakin onun strateji mahiyyəti (rəqibin diqqətini, qüvvəsini və resursunu bölmək) geosiyasi qarşıdurmalarda öz aktuallığını saxlayır.

Kaliningradın bu baxımdan xüsusi əhəmiyyəti var. Polşa ilə Litva arasında yerləşən Suvalki dəhlizi NATO-nun Baltikyanı üzvləri ilə alyansın digər əraziləri arasındakı quru əlaqəsinin ən həssas nöqtələrindən biri hesab olunur. Bu coğrafiyada baş verən hər bir hərbi dəyişiklik Polşa, Litva və digər NATO dövlətlərinin müdafiə planlarına təsir göstərir. 2026-cı ilin iyununda Polşa, Litva və Fransanın Suvalki dəhlizi yaxınlığında birgə hərbi təlimlər keçirməsi də həmin ərazinin təhlükəsizlik baxımından necə qiymətləndirildiyini göstərirdi. Bunun maliyyə tərəfi daha maraqlıdır. Avropa artıq Ukraynaya yardım üçün böyük resurslar ayırmaqla yanaşı, özünün müdafiə qabiliyyətini də sürətlə artırır. NATO ölkələri 2026-cı il üçün Ukraynaya 70 milyard avro hərbi yardım ayırmağı və 2027-ci ildə ən azı eyni səviyyəni qorumağı planlaşdırdığını açıqlayıb. Eyni zamanda Avropa dövlətlərinin müdafiə büdcələri də artırılır. Almaniyanın 2027-2030-cu illərdə 838,2 milyard avro borclanmağı planlaşdırması, bunun böyük hissəsinin infrastruktur və təhlükəsizlik xərclərinin maliyyələşdirilməsi ilə əlaqələndirilməsi Avropanın təhlükəsizlik siyasətində baş verən maliyyə dönüşünün miqyasını göstərir. Almaniya Maliyyə Nazirliyi artan borclanma xərclərini də təhlükəsizlik tələblərinin artması ilə əlaqələndirib. Beləliklə, eyni Avropa maliyyə sistemi qarşısında iki paralel tələb yaranır: Ukraynanın müharibə qabiliyyətinin saxlanması və Avropanın öz sərhədlərinin müdafiəsini gücləndirməsi. Bu iki xərc bir-birini avtomatik olaraq əvəz etmir, lakin dövlət büdcələri sonsuz deyil. Əgər Polşada, Baltikyanı ölkələrdə, Almaniyada, Skandinaviyada və digər Avropa dövlətlərində müdafiə infrastrukturu sürətlə genişləndirilirsə, yeni hava hücumundan müdafiə sistemləri alınırsa, qoşunların sayı artırılırsa, sursat ehtiyatları bərpa edilirsə və eyni vaxtda Ukraynaya milyardlarla avro yardım göstərilməsi davam etdirilirsə, maliyyə resurslarının hansı sürətlə tükəndiyi artıq hərbi yox, makroiqtisadi məsələdir.

“Reuters”-in 2026-cı il iyulunda yayımladığı təhlildə Avropanın artan müdafiə xərclərinin iqtisadi artıma təzyiq göstərə biləcəyi qeyd olunurdu. Bu vəziyyət Rusiyanın hesablamaları baxımından əhəmiyyətlidir, çünki Moskvanın Ukraynaya yardımı azaltmaq üçün mütləq şəkildə Qərb ölkələrinin siyasi qərarını birbaşa dəyişdirməsinə ehtiyac yoxdur. Əgər təhlükəsizlik təhdidlərinin coğrafiyası genişlənirsə və Avropa öz hərbi resurslarını eyni vaxtda bir neçə istiqamətə bölməyə məcbur olursa, Kiyevə ayrılan vəsaitin qarşısında rəqabət aparan başqa maliyyə prioritetləri yaranır. Ukraynaya göndəriləcək növbəti hava hücumundan müdafiə sistemi ilə Polşanın müdafiə infrastrukturu arasında birbaşa hüquqi seçim olmasa da, hər ikisinin arxasında eyni məhdud dövlət resursu dayanır. Məhz burada İturupdan Köniqsberqə qədər uzanan xəritənin siyasi mənası görünür. İturup Yaponiyanı, Kaliningrad Polşa və Baltikyanı ölkələri, Suvalki dəhlizi NATO-nu, Arktika Şimali Avropanı narahat edir. Ukrayna bütün bunların yanında ayrıca hərbi yardım tələb edir. Beləliklə, təhlükəsizlik gündəliyi genişləndikcə maliyyə gündəliyi də parçalanır. Rusiya üçün ən əlverişli ssenari Qərbin hərbi baxımdan zəifləməsi deyil, Qərbin resurslarının o qədər çox istiqamətə bölünməsidir ki, həmin resursların heç biri əvvəlki qədər konsentrasiyalı təsir yaratmasın.



Bu məqam Ukrayna üçün xüsusilə həssasdır, çünki Ukraynanın hava hücumundan müdafiə sistemləri və raket ehtiyatları artıq real çatışmazlıqla üzləşir. 19 avqust 2026-cı ildə Rusiyanın Kiyev və ətrafına genişmiqyaslı raket və dron hücumundan sonra Prezident Volodimir Zelenski Ukraynanın “Patriot” hava hücumundan müdafiə sistemləri üçün raket çatışmazlığının insan itkilərinə səbəb olduğunu bildirib. Həmin hücumda 16 nəfər həlak olub, 40-dan çox insan yaralanıb. Bu fakt göstərir ki, Ukraynaya yardımın miqdarı ilə yanaşı yardımın hansı istiqamətə yönəldilməsi və nə vaxt çatdırılması da strateji əhəmiyyət daşıyır. İndi təsəvvür etmək çətin deyil: Avropa eyni vaxtda öz hava məkanını, Baltikyanı sərhədləri, Polşa-Litva xəttini, Arktikanı və digər istiqamətləri gücləndirməyə məcburdursa, ABŞ isə Avropa ilə yanaşı Sakit okean və başqa strateji regionlarda öhdəliklərini yerinə yetirirsə, Ukraynaya yardımın siyasi və maliyyə davamlılığı daha mürəkkəb məsələyə çevrilir.

Bu, Ukraynaya yardımın mütləq azalacağı demək deyil. Əksinə, NATO 2026-cı il üçün 70 milyard avroluq hərbi yardım öhdəliyini elan edib. Lakin təhlükəsizlik xərclərinin coğrafiyası genişləndikcə Ukraynaya ayrılan vəsaitin digər müdafiə prioritetləri ilə rəqabət aparması qaçılmaz maliyyə reallığıdır. İturupdan Köniqsberqə qədər uzanan xəritənin təhlükəli tərəfi də məhz budur. Birbaşa zərbə olmadan resursları bölmək. Yeni cəbhə açmadan yeni müdafiə xətti yaratmaq. Düşməni məğlub etmədən onu hər yerdə hazır vəziyyətdə saxlamaq və ən nəhayət, qarşı tərəfin maliyyəsini sərhədləri boyunca səpələməklə onun əsas zərbə istiqamətindəki konsentrasiyasını zəiflətmək.

Bu baxımdan İturup təkcə Yaponiyaya göndərilmiş siyasi siqnal deyil, Köniqsberq isə təkcə Avropanın xəritəsindəki Rusiya anklavı deyil. Onlar birlikdə daha geniş təhlükəsizlik dilemmasının iki ucunu göstərir. Qərb özünü nə qədər çox istiqamətdə müdafiə etməyə məcbur olunarsa, Ukraynaya yönəldə biləcəyi siyasi, hərbi və maliyyə diqqətinin bir o qədər çox hissəsi başqa istiqamətlərə çəkilə bilər və bu oyunda ən ağır zərbə bəzən atılan raket yox, rəqibin eyni anda hər yerdə hazır olmağa məcbur edilməsidir.



*Kəramət QƏNBƏROV,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Dövlət qulluğu və kadr siyasəti” kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert və beynəlxalq münasibətlər üzrə tədqiqatçı*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Niyə müharibə etməliyik?



## Samanta Smitin tarixə düşən sualı...

## Ömrü qısa, sülh mesajı əbədi olan qız

Dünya tarixində elə insanlar var ki, onların həyat yolu siyasi qarşıdurmaların, beynəlxalq gərginliklərin və böyük dövlətlər arasındakı mürəkkəb münasibətlərin fonunda gözlənilməz bir hadisə ilə yadda qalır. Həmin hadisə isə sonradan bir insanın adını bütöv bir nəslin yaddaşına həkk edir. Amerikalı məktəbli qız Samanta Smit də məhz belə taleyi olan insanlardan biri kimi tarixə düşüb.

Bu qızcığaz kim idi? Niyə kiçik yaşında tarixin səhifəsinə çevrildi?

Samanta Smit 29 iyun 1972-ci ildə Amerikada doğulub. Bu ad yəqin ki, Sovet İttifaqı dönəmini görmüş yaşlı və orta nəsil azərbaycanlıların yadında olar.

O vaxtlar SSRİ və ABŞ arasında “soyuq müharibə” yelləri əsirdi. “Soyuq müharibə”nin qızğın çağında SSRİ-də hakimiyyət başına Yuri Andropov gəldi. Yuri Andropovun hakimiyyətə gəlməsi Qərbdə bərk narahatlıqla qarşılandı. Qərb mətbuatı Andropovdan bəhs edən məqalələr nəşr etməyə başladılar. Qərbin apardığı təbliğatda Andropov dünyaya yeni və dəhşətli müharibə təhlükəsi gətirən sovet lideri kimi təqdim olunurdu. Bu zaman Samanta Smit televizordan nüvə müharibəsinin baş verəcəyi, Yer kürəsinin məhv olacağı xəbərini eşidir. 1982-ci ilin payızında Amerika məktəblisi nüvə müharibəsi perspektivləri barədə öz narahatlığını məktub şəklində Andropova yazır:

“Hörmətli, cənab Andropov! Mənim adım Samanta Smitdir. Mənim 10 yaşım var. Sizi yeni işiniz münasibətilə təbrik edirəm. Mən Rusiya və Amerika Birləşmiş Ştatları arasında nüvə müharibəsinin başlamasından çox narahatam. Siz müharibənin başlamasına səs vermək istəyirsiniz, ya yox? Əgər istəmirsinizsə, onda xahiş edirəm deyəsiniz ki, müharibənin qarşısını almağa necə yardım etməyi düşünürsünüz? Siz bu sualıma cavab vermək məcburiyyətində deyilsiniz, amma mən bilmək istərdim ki, nə üçün siz dünyanı və ya ən azından bizim ölkəmizi fəth etmək istəyirsiniz? Tanrı dünyanı yaradıb ki, biz hamımız sülh şəraitində yaşayaq və müharibə etməyək. Hörmətlə, Samanta Smit”.

Balaca bir qızın böyük dövlət rəhbərinə ünvanladığı bu məktub ilk baxışda adi bir uşağın marağı kimi görünə bilərdi. Ancaq həmin məktubun arxasında dövrün siyasi mənzərəsini dəyişdirmək gücündə olan mühüm bir mesaj - müharibədən çox sülhə, qarşıdurmadan çox qarşılıqlı anlaşmaya ehtiyac olduğu fikri dayanırdı. Məhz buna görə Samantanın adı qısa müddətdə ABŞ və Sovet İttifaqında, daha sonra isə dünyanın müxtəlif ölkələrində tanınmağa başladı.

Bir neçə aydan sonra Samantanın gözləmədiyi halda məktub SSRİ-də çıxan “Pravda” qəzetində dərc olunur. Nəhayət, 26 aprel 1983-cü il tarixində Amerika məktəblisi Yuri Andropovun cavab məktubunu alır. Andropov Samantanın məktubuna cavab verərək onu Sovet İttifaqına dəvət edir. 1983-cü ilin yayında amerikalı məktəbli Sovet İttifaqına səfər edərək Moskva və Leninqradı gəzir, məktəblilərlə ünsiyyət qurur. Bu səfəri ilə iki ölkənin siyasi rəhbərləri arasında mövcud olan gərginliyin əksinə olaraq xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanın mümkün olduğunu nümayiş etdirdi.

Samantanın Sovet İttifaqına səfəri sadəcə bir uşağın xarici ölkəyə səyahəti deyildi. Həmin səfər soyuq müharibənin ən gərgin mərhələlərindən birində iki düşmən siyasi sistemin insanlarını bir-birinə yaxınlaşdıran simvolik hadisəyə çevrilmişdi. Dünya mediası onun hər addımını izləyərək balaca məktəblinin sülh çağırışını milyonlarla insana çatdırmışdı.



Samanta Smit sovet uşaqları ilə görüşərkən onları siyasi rəqib kimi deyil, özünə bənzər arzuları, ümidləri və duyğuları olan insanlar kimi görürdü. Bu sadə yanaşma onun mesajını daha təsirli edirdi, çünki o, siyasətçilərin mürəkkəb diplomatik ifadələrlə izah edə bilmədiyi bir həqiqəti uşaq səmimiyyəti ilə ifadə edirdi: müxtəlif ölkələrdə yaşayan insanların hamısı müharibə deyil, sakit və təhlükəsiz həyat istəyir...

Onun adı qısa müddətdə sülh ideyasının simvollarından birinə çevrildi, Samanta müxtəlif tədbirlərə dəvət olundu, televiziya proqramlarında iştirak etdi və öz ölkəsində olduğu kimi xaricdə də sülh, dostluq və xalqlar arasında anlaşma haqqında fikirlərini bölüşdü. Beləliklə, o, adi məktəbli həyatından çıxaraq beynəlxalq səviyyədə tanınan gənc bir ictimai şəxsə çevrildi.

Təəssüf ki, Samantanın həyat yolu çox qısa oldu. Avqustun 25-də onun vəfatının 41-ci ili tamam olur. SSRİ-yə səfərindən sonra yəni, 25 avqust 1985-ci il tarixində Samanta Smit atası ilə birgə müəmmalı təyyarə qəzası nəticəsində həlak olur. İngiltərədən məşhur Robert Vaqnerin teleşousundan qayıdarkən təyyarə Oqast şəhərinin aeroportuna enməli olduğu halda, buradan cənub-qərbdə yerləşən Obern-Lüiston bələdiyyə aeroportuna yönləndirilir. Görmə məsafəsinin az olması səbəbindən ikimühərrikli kiçik “Beechcraft 99” təyyarəsi uçuş-enmə zolağına çatmadan, onun kənarına 200 metr qalmış yerə çırpılır. Təyyarədəki 6 sərnişin və 2 heyət üzvü hadisə yerində həlak olurlar. 13 yaşlı qız və atası Samantanın doğulduğu Men ştatının Houlton şəhəri yaxınlığında dəfn olunurlar. O zaman 13 yaşlı amerikalı qızcığazın faciəsi bütün sovet məktəblilərini sarsıdır. Ölümündən sonra müxtəlif fərziyyələr ortaya çıxır. Hələ də Samanta Smitin xüsusi xidmət orqanlarının qurduğu hadisə nəticəsində öldüyünü söyləyənlər var.

Samantanın ölüm xəbəri yalnız ABŞ-da deyil, Sovet İttifaqında da böyük kədər doğurdu. Minlərlə insan onun xatirəsini yad etdi, çünki qısa ömrünə baxmayaraq o, siyasi mövqeyi və ya dövlət vəzifəsi ilə deyil, sadə bir məktubla böyük dünyaya təsir göstərə bilmişdi.

Bu gün Samanta Smitin adı xatırlanarkən, əslində, yalnız bir amerikalı məktəblinin həyatından danışılmır. Eyni zamanda dünyanın ən gərgin siyasi qarşıdurmalarından birinin fonunda uşaqların belə böyük dəyişikliklər haqqında düşünə, sual verə və sülh naminə öz sözünü deyə biləcəyini göstərən nümunədən bəhs olunur.

Samantanın hekayəsinin ən təsirli tərəfi isə onun böyük siyasi iddialarının olmamasında idi. Çünki o, nə diplomat idi, nə siyasətçi, nə də dövlət xadimi. Sadəcə dünyada baş verənləri anlamağa çalışan və böyüklərin müharibə haqqında danışmasından narahat olan bir uşaq idi, məhz bu səmimiyyət onun sözlərini milyonlarla insan üçün daha inandırıcı etmişdi.

Samanta Smitin həyatının üzərindən onilliklər keçsə də, onun adı hələ də soyuq müharibə tarixinin ən yaddaqalan simalarından biri kimi çəkilir. Onun taleyi göstərir ki, bəzən böyük siyasi hadisələrin kölgəsində görünməyən bir insanın sadə sualı belə milyonlarla insanı düşündürə bilər. Çünki sülh haqqında danışmaq üçün mütləq yüksək kürsüyə, böyük siyasi vəzifəyə və ya güclü dövlətə sahib olmaq lazım deyil. Bəzən dünyaya lazım olan ən təsirli söz sadəcə bir uşağın ürəkdən verdiyi “Niyə müharibə etməliyik?” sualı olur...

*Yeganə BAYRAMOVA*

Onun adı çəkiləndə ilk növbədə həyata, insana və Vətənə özünəməxsus münasibəti ilə seçilən, sözün sadə görünən qatlarının altında böyük mənalar gizlədən, zamanın səsini duymağı və onu poetik ifadəyə çevirməyi bacaran sənətkar obrazı göz önünə gəlir. Çünki onun yaradıcılığında adi həyat hadisələri belə şair təxəyyülünün süzgəcindən keçərək insanı düşündürən, duyğulandıran, bəzən də həyat haqqında yenidən düşünməyə vadar edir. Fikrət Qocanın yaradıcılıq dünyasının əsas xüsusiyyətlərindən biri onun insan taleyinə və hisslərinə həssas münasibətidir. Şair üçün insan yalnız əsərin qəhrəmanı deyil, həyatın bütün ziddiyyətlərini, sevincini, kədərini, ümidini və narahatlığını özündə daşıyan mürəkkəb bir mənəvi aləmdir. Məhz buna görə əsərlərində sevgi, dostluq, sədaqət, Vətən, zaman, yaddaş, həyat və ölüm kimi böyük mövzular müxtəlif çalarlarla öz əksini tapıb.



# Müharibə uşaqlığından ədəbiyyat zirvəsinə...

## Fikrət Qoca ömrünü yazıya, yazılarını isə insanlara əmanət edən sənətkar idi

Sabah görkəmli şair və yazıçının anadan olmasından 91 il ötür. O, 1935-ci il avqustun 25- də Ağdaş rayonunun Kotanarx kəndində anadan olub. Uşaqlıq illəri Azərbaycanın ən ağır tarixi dövrlərindən birinə - İkinci Dünya müharibəsi illərinə təsadüf edib. Şair sonralar həmin illəri xatırlayarkən uşaqlığının bir hissəsinin atasının çalışdığı hospitalda keçdiyini, müharibənin yaratdığı ağır mənzərələri gördüyünü danışırdı. Görünür, insan taleləri ilə erkən yaşda üz-üzə qalması onun dünyagörüşünün formalaşmasına, insan həyatına və mənəvi dəyərlərə münasibətinə də ciddi təsir göstərmişdi.

**Şair olmamışdan əvvəl...**

Atası həkim olan Fikrət Qocanın uşaqlıq xatirələrində müharibə illərinin acı mənzərələri xüsusi yer tuturdu. Maraqlıdır ki, şairin həyat yolu birbaşa ədəbiyyatla başlamayıb. O, Ağdaşda orta məktəbi bitirdikdən sonra 1953-1957-ci illərdə Bakı dəmir yolu texnikumunda təhsil alıb, daha sonra 1957-1959-cu illərdə Bakıda tikinti idarəsində işləyib və yalnız bundan sonra Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almaq üçün yola çıxıb. Yəni, gələcək Xalq şairinin həyatında dəmir yolu, tikinti, mətbuat və ədəbiyyat kimi ilk baxışdan bir-birindən uzaq görünən sahələr bir-birini əvəz edib.

**Moskva illəri və böyük dostluq**

Moskvada keçən tələbəlik illəri isə onun həyatında xüsusi mərhələ olub. 1959-1964-cü illərdə Maksim Qorki adına Ədəbiyyat İnstitutunda təhsil alan Fikrət Qoca burada yalnız peşəkar ədəbi biliklər qazanmır, eyni zamanda böyük bir şəhərin, müxtəlif xalqların və fərqli mədəniyyətlərin içərisində öz dünyagörüşünü daha da genişləndirirdi.

Onun Moskvadakı tələbəlik illərinin maraqlı tərəflərindən biri də gələcək Xalq şairinin həmin dövrdə Azərbaycan ədəbi mühitində tanınan gənclərlə dostluq etməsi idi. Fikrət Qocanın uzun illər yaxın dostluq etdiyi Xalq şairi Nəriman Həsənzadə də onun tələbə yoldaşı olub. Bu dostluq sonralar onilliklər boyu davam edərək Azərbaycan ədəbiyyatının iki görkəmli nümayəndəsini bir-birinə bağlayan möhkəm mənəvi körpüyə çevrilib.

Bakıya qayıtdıqdan sonra Fikrət Qocanın həyatında mətbuat və ədəbi təşkilatçılıq xüsusi yer tutmağa başlayıb. O, Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində redaktor, “Azərbaycan gəncləri” qəzetində ədəbi işçi, Azərbaycan Yazıçılar İttifaqında məsul katib, “Azərbaycan” jurnalında şöbə müdiri və uzun illər “Qobustan” incəsənət toplusunun baş redaktoru kimi çalışıb.

Fikrət Qocanın həyatında səyahətlərin də xüsusi yeri olub. Dünyanın müxtəlif ölkələrinə etdiyi səfərlər onun dünyagörüşünü zənginləşdirib, müxtəlif xalqların həyatını, milli azadlıq mübarizələrini və tarixi hadisələrini yaxından öyrənməsinə imkan yaradıb. Bu səfərlərin izləri onun əsərlərində də özünü göstərib. Ağdaşın kiçik Kotanarx kəndindən çıxan şairin dünyası zaman keçdikcə ölkə sərhədlərini aşaraq Latın Amerikasından Asiyaya qədər uzanan böyük coğrafiyanı əhatə edib.

**85 yaşında belə yazı masasından ayrılmırdı**

Onun həyatının daha şəxsi və maraqlı səhifələrindən biri isə həyat yoldaşı Raya xanımla tanışlığıdır. Raya xanımın xatirələrinə görə, onların ailələri əvvəldən bir-birini tanıyırmış və gələcək həyat yoldaşı ilə ilk görüşlərindən biri Kürqırağı meşələrdə baş verib. Sonradan isə bu təsadüfi görüş uzun illər davam edən ailə həyatının başlanğıcına çevrilib.

Fikrət Qocanın ömrünün son illərində belə yazı masasından uzaq düşməməsi onun xarakterinin mühüm cəhətlərindən biri idi. 2020-ci ildə karantin dövründə verdiyi müsahibədə evdə əvvəlki işi ilə məşğul olduğunu, şeirlər yazdığını və çap olunacaq materialları hazırladığını söyləyirdi. Bir sözlə, 85 yaşında belə onun üçün yaradıcılıq sadəcə peşə deyil, gündəlik həyatının ayrılmaz hissəsi olaraq qalırdı.

Fikrət Qoca 2021-ci il mayın 5-də dünyasını dəyişib. Şairlər dünyadan köçsələr də, onların sözlə yaratdıqları dünya yaşayır. Çünki zaman insan ömrünü təqvimlərə yazsa da, əsl sənətin ömrünü illərlə ölçmək mümkün olmur. Fikrət Qocanın adı da Azərbaycan ədəbiyyatında məhz sözə sədaqəti, həyatın gerçəkliklərinə açıq baxışı və poeziyanın insan qəlbinə yol tapmaq gücünə inamı ilə yadda qalan sənətkarlar sırasında yaşayır.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4498**
**Sifariş: 1095**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova